Əlixan Musayev

Muhəmməd Peyğəmbərin ﷺ
dəvət əhlinə buyurduğu

# ÜÇ ƏSAS

Redaksiya heyəti

Ə. Musayev

M. Qarayev

A. Salehli

M. Kərim

F. Allahverdiyev

Kompüter tərtibatı

E. Rüstəmov

# ŞƏHADƏT
# NAMAZ
# ZƏKAT

بسم الله الرحمن الرحيم

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**

# MÜQƏDDİMƏ

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanmağımızı və bizi haqq yoluna yönəltməsini diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət verərsə, o kimsə haqq yolunda olar. Azmaq istəyəni də haqq yoldan azdırsa, onu bu yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və rəsuludur.

**"Ey iman gətirənlər, Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"**[1]

**"Ey insanlar, sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir".**[2]

**"Ey iman gətirənlər, Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar."**[3]

Şübhəsiz, ən xeyirli kəlam Allahın Kəlamı, ən doğru yol da Peyğəmbərimiz Muhəmmədin ﷺ yoludur. Həmçinin, ən pis əməl dinə əlavə edilən yeniliklərdir. Hər bir yenilik bidət, hər bir bidət zəlalət, hər bir zəlalət də Cəhənnəmə aparan yoldur.

---

[1] "Ali-İmran" surəsi, 102.

[2] "ən-Nisa" surəsi, 1.

[3] "əl-Əhzab" surəsi, 70-71.

Möhtərəm oxucu! Bu kitab İslam dinini təbliğ etmək istəyən hər bir müsəlmana, insanları bu dinə dəvət etdikdə ilkin olaraq hansı əsaslardan başlamalı olduğunu öyrədir. Bunlar Muhəmməd Peyğəmbərin ﷺ hər bir dəvətçiyə buyurduğu üç əsasdır. Barəsində danışacağımız bu əsaslar Peyğəmbərin ﷺ səhabəsi Muaz ibn Cəbəlin ﷜ rəvayət etdiyi hədisdə xüsusilə vurğulanmışdır. Səhabə rəvayət edir ki, Peyğəmbər ﷺ İslam dinini təbliğ etmək üçün onu Yəmənə göndərdikdə, belə buyurmuşdur: **“Sən Kitab əhlindən olan bir qövmün yanına gedirsən. Onları Allahdan başqa** ***ibadətə layiq*** **məbudun olmadığına və mənim Allahın rəsulu olduğuma şəhadət verməyə dəvət et. Əgər bunu qəbul etsələr, onlara bildir ki, Allah onlara gündəlik olaraq beş vaxt namaz qılmağı vacib buyurmuşdur. Əgər bunu qəbul etsələr, onlara bildir ki, Allah onlara zəkat verməyi, onun varlılarından götürülüb kasıblarına verilməsini vacib buyurmuşdur. Əgər bunu qəbul etsələr, onda onların mallarının ən qiymətlisini götürməkdən çəkin və məzlumun bədduasından qorx! Çünki onunla Allah arasında** (o bədduanın qarşısını ala biləcək) **heç bir pərdə yoxdur.”**[1]

Hədisdən aydın başa düşülür ki, İslam dinini təbliğ edən hər bir dəvətçi insanlara ilk əvvəl Allahdan başqa ibadətə layiq məbudun olmadığını və Muhəmmədin ﷺ Onun rəsulu olduğunu, sonra isə namaz qılmağın və zəkat verməyin vacib buyurulduğunu bildirməlidir.

---

[1] “Səhih əl-Buxari”, 1395, 4347 və 1496; “Səhih Muslim”, 19 və 30; “Sunən Əbu Davud”, 1584; “Sunən ət-Tirmizi”, 630; “Sunən ən-Nəsai əl-Kubra”, 2226 və 2313; “Sunən İbn Macə”, 1783; “Musnəd İmam Əhməd”, 2071; “Sunən əl-Beyhəqi əl-Kubra”, 7068; “Sunən əd-Daraqutni”, 2081; “Sunən əd-Darimi”, 1614; “Səhih İbn Hibban”, 156.

Hədisdən o da aydın olur ki, bu üç əsası qəbul etmək bəşəriyyətə vacib buyurulmuşdur. Quranda Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin ﷺ Onun rəsulu olduğuna, həmçinin namaz qılmağın və zəkat verməyin vacib buyurulduğuna dair yüzlərlə ayələr vardır. O ayələrdən bəziləri bunlardır:

**"Allah ədalətli olaraq şahidlik etmişdir ki, Özündən başqa *ibadətə layiq* məbud yoxdur. Mələklər və elm sahibləri də, *buna şahidlik etmişlər*. Ondan başqa *ibadətə layiq* məbud yoxdur, Qüdrətlidir, Hikmət sahibidir."**[1]

**"Həqiqətən, Mən Allaham! Məndən başqa ibadətə layiq məbud yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!"**[2]

**"Böyük Ərşin Rəbbi olan Allahdan başqa *ibadətə layiq* məbud yoxdur."**[3]

**"Allahdan başqasına ibadət etməyin!"**[4]

**«De: "Ey Kitab əhli! Bizimlə sizin aranızda olan eyni bir kəlməyə *tərəf* gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək"».**[5]

**"Muhəmməd Allahın rəsuludur."**[6]

---

[1] "Ali-İmran" surəsi, 18.

[2] "Ta ha" surəsi, 14.

[3] "ən-Nəml" surəsi, 26.

[4] "Hud" surəsi, 26.

[5] "Ali-İmran" surəsi, 64.

[6] "əl-Fəth" surəsi, 29.

**"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur."**[1]

**"Namaz qılın, zəkat verin!"**[2]

Əgər biz müsəlmanlar Allah rəsulunun ﷺ ümmətinə vacib buyurduğu bu üç əsası insanlara hikmətlə və mərhələli şəkildə təbliğ etsək, Quranda deyildiyi kimi, **"ən xeyirli ümmət"**dən sayılarıq. Çünki ən xeyirli ümmət sayılmaq üçün insanlara yaxşı işlər görməyi buyurmaq və onları pis əməllərdən çəkindirmək şərtdir. Qeyd olunan bu üç əsas isə yaxşı işlərin ən üstünü və ən vacib olanlarıdır. Bu xüsusda, Quranda belə buyurulur: **"Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz; *onlara* yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz."**[3]

Demək, müsəlman olan kəs bu ayədə zikr edilən vəsfləri özündə cəm etdiyi müddətcə ən xeyirli insanlardan sayılır. Əks halda isə, o, xeyir-bərəkətdən məhrum olur.

Bu sifətləri özündə cəm edən mömin adam Qiyamət günü nicat tapacaqdır. Bu xüsusda, Quranda belə buyurulur: **"Qoy, sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicata qovuşanlardır."**[4]

Qeyd edilən üç əsasla bağlı insanların etdiyi günahlara göz yummaq çox təhlükəlidir və nəticə etibarı ilə, onların bu səbəblə başlarına gələcək müsibətin bir ucu bizə də toxunar,

---

1 "əl-Əhzab" surəsi, 40.
2 "əl-Bəqərə" surəsi, 110.
3 "Ali-İmran" surəsi, 110.
4 "Ali-İmran" surəsi, 104.

çünki bizim bu işdə müsəlman olaraq məsuliyyətimiz var. Hədisdə deyildiyi kimi: “Gəmi batanda hamı həlak olar.”

Bu xüsusda, Peyğəmbər ﷺ belə demişdir: **“Allahın qoyduğu hüdudları qoruyanların və onu aşanların halı, gəmiyə minmək üçün püşk atdıqdan sonra bir qismi gəminin göyərtəsinə, digərləri də gəminin aşağı mərtəbəsinə yerləşmiş bir toplumun halına bənzəyir.** ***Onlar dənizdə olduqları zaman*** **aşağıdakılar su istədikdə gəminin göyərtəsinə qalxıb yuxarıdakıların arasından keçir** ***və onları narahat edirlər.*** (Nəhayət, yuxarıdakılar aşağıdakılara dənizdən su götürməyi qadağan etdikdə,) **aşağıdakılar deyirlər: “Gəlin, gəmini deşib buradan su götürək və yuxarıdakıları narahat etməyək.” Əgər yuxarıdakılar onların bu əməlinə göz yumsalar,** ***gəmi batacaq və*** **hamısı həlak olacaqlar; yox, əgər bunun qarşısını alsalar, onda həm özləri, həm də aşağıdakılar xilas olacaqlar.”**[1]

Digər hədisdə xəbər verilir ki, Peyğəmbərdən ﷺ: “Ya Rəsulullah, aramızda əməlisaleh insanlar olduğu halda biz həlak ola bilərikmi?”– deyə soruşduqda, Peyğəmbər ﷺ demişdir: **“Əgər günah işlər artarsa, bəli!”**[2]

İnsanların etdikləri günahlara göz yuman dindarları, xüsusilə də elm əhlini uca Allah belə təhdid edir:

﴿ وَٱتَّقُوا۟ فِتْنَةً لَّا تُصِيبَنَّ ٱلَّذِينَ ظَلَمُوا۟ مِنكُمْ خَآصَّةً ۖ وَٱعْلَمُوٓا۟ أَنَّ ٱللَّهَ شَدِيدُ ٱلْعِقَابِ ﴾

**“Sizlərdən təkcə zalım olanları deyil,** ***hamınızı bürüyəcək*** **bəladan qorxun. Bilin ki, Allah şiddətli cəza verəndir.”**[3]

---

[1] “Səhih əl-Buxari”, 2493.

[2] “Səhih əl-Buxari”, 3346; “Səhih Muslim”, 2880.

[3] “əl-Ənfal” surəsi, 25.

Allahdan istəyimiz budur ki, bizə elə bir elm bəxş etsin ki, onun sayəsində biz həm bu dünyada, həm də Axirətdə nicat tapaq. Hamımız üçün Allah dua edib deyirik:

(( اللهُمَّ انْفَعْنَا بِمَا عَلَّمْتَنَا، وَعَلِّمْنَا مَا يَنْفَعُنَا، وَزِدْنَا عِلْمًا ))

**“Allahım, bizə öyrətdiklərini bizim üçün faydalı et, bizə fayda verəcək şeyləri öyrət və bizim elmimizi artır!”**[1]

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ عِلْمًا نَافِعًا وَرِزْقًا طَيِّبًا، وَعَمَلا مُتَقَبَّلا ))

**“Allahım, Səndən faydalı elm, təmiz ruzi və qəbul olan əməl diləyirəm!”**[2]

---

[1] “Sunən ət-Tirmizi”, 3916; “Səhih Sunən ət-Tirmizi”, 1/476.
[2] “Sunən İbn Macə”, 925; “Silsilə əl-Əhadis əs-Səhihə”, 114.

# ÜÇ ƏSAS:

1. Şəhadət
2. Namaz
3. Zəkat

# ŞƏHADƏT

Bu kitabda bəhs edilən üç əsasın birincisi Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin ﷺ Onun rəsulu olduğuna şəhadət verməkdir. Peyğəmbər ﷺ Muaz ibn Cəbəli رضي الله عنه Yəmənə göndərdikdə, ona Kitab əhlinə ilk əvvəl bu kəlməni təbliğ etməyi əmr edərək, **“Onları Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və mənim Allahın rəsulu olduğuma şəhadət verməyə dəvət et”**[1]– demişdir. Bu və bu mənada olan hədislərə əsaslanan İslam alimləri yekdil rəydədirlər ki, şəhadət kəlməsinin mənasını anlayıb, qəlbi ilə qəbul edib, onu tələffüz edən hər kəs müsəlman sayılır.

Şəhadət kəlməsi iki cümlədən ibarətdir:

– Əşhədu ən lə ilahə illəllah/mən şəhadət verirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur!

– Əşhədu ənnə Muhəmmədən rəsulullah/mən şəhadət verirəm ki, Muhəmməd Allahın rəsuludur!

İndi gəlin, bu iki cümlənin ayrı-ayrılıqda izahına baxaq:

İslam alimləri şəhadətin birinci cümləsini “tövhid” kəlməsi adlandırırlar. Kəlmələrin ən əzəmətlisi və mütləq şəkildə ən möhtəşəmi sayılan bu kəlmə bütün peyğəmbərlərin عليهم السلام dəvətində onların tək qayəsi olmuşdur. Məhz bu kəlmə ən fəzilətli zikr, tərəzidə savabı ən ağır gələn əməl, günahların hamısını silib aparan, Cənnətə daxil edən və Cəhənnəm odundan qoruyan ən əsas amil sayılır. Bu kəlmənin mənasını özündə əks etdirən əqidədən başqa heç bir əqidə tövhid sayıla bilməz. Bu kəlmə

---

[1] Hədisi tam olaraq kitabın müqəddiməsində (səh.6) qeyd etmişik.

İslamın rükünlərinin birincisi və imanın şöbələrinin ən alisidir. Elə isə, hər kəsə bu kəlmənin mənasını bilmək və ona əməl etmək vacibdir. Bu xüsusda, Quranda belə buyurulur: **"Bil ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur."**[1]

Diqqət edin! Bu ayədə Quranı oxuyan hər kəsə: **"Bil ki,"** deyə əmr edir. Demək, Rəbbimiz bizə namaz, zəkat və digər ibadətlərdən öncə bu kəlmənin mənasını bilməyi əmr etmişdir. Çünki "lə ilahə illəllah" olmadan nə namaz, nə zəkat, nə də başqa bir ibadət qəbul olunur. Bu xüsusda Quranda belə buyurulur: ***"Ey Peyğəmbər!*** **Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər *Allaha* şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan."**[2]

Odur ki, Allahın göndərdiyi peyğəmbərlərin عليهم السلام hamısının vəzifəsi məhz insanları tövhidə dəvət etmək olmuşdur. Bu xüsusda, Quranda belə buyurulur:

**"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan[3] uzaq olun"–** ***deyə*****, peyğəmbər göndərmişik."**[4]

**"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa *ibadətə layiq* məbud yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."**[5]

***"Allah*** **Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda**

1 "Muhəmməd" surəsi, 19.
2 "əz-Zumər" surəsi, 65.
3 Allahla yanaşı ilahiləşdirilən və ibadət olunan hər hansı bir məxluq.
4 "ən-Nəhl" surəsi, 36.
5 "əl-Ənbiya" surəsi, 25.

**bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin *tövhid* müşriklərə ağır gəldi."**[1]

Bu kəlməyə aid məzmunu dörd qismə bölmək olar:

"Lə ilahə illəllah"ın mənası, fəziləti, şərtləri və insanı İslamdan çıxaran əməllər.

## 1. "Lə ilahə iləllah" kəlməsinin mənası:

Bu kəlmə iki təməl üzərində dayanır – inkar və isbat. Kəlmənin əvvəlindəki "lə ilahə (ilah yoxdur)" ümumi inkar, onun sonundakı "illəllah (Allahdan başqa)" isə xüsusi isbatdır. Bu kəlmənin əvvəlindəki ümumi inkar olan "lə ilahə" Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edir, "illəllah" kəlməsi isə ibadətin bütünlüklə Tək Allaha məxsus olduğunu təsdiqləyir. "Lə ilahə" sözündəki "ilah" kəlməsi "məbud (ibadət olunan)" deməkdir. Bir kimsə "lə ilahə", yəni "lə məbudə" deyəndə, Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edir. Bu cümlədəki "lə" inkar ədatı qondarma ilahların hamısını əhatə edir. Demək, "lə ilahə illəllah" Allahdan başqa ibadətə layiq məbud yoxdur deməkdir. Odur ki, kimliyindən asılı olmayaraq, Allahdan başqa ibadət edilən ilahların hamısı batildir. Buradan aydın olur ki, ibadət yalnız Allahın haqqıdır və heç kəs, heç nə bu haqqa şərik ola bilməz. "Lə ilahə illəllah" kəlməsini həqiqi mənada, sidq-ürəkdən deyən adam ibadət sayılan heç bir əməli Allahdan qeyrisinə yönəltməz. Beləsi istədiyini yalnız Allahdan istəyir, yalnız Allahdan mədəd və yardım diləyir, bütün ibadətlərini yalnız Allaha yönəldir. Birisi dili ilə "la ilahə illəllah" deməsi ilə yanaşı Allahdan qeyrisinə dua etsə, Allahdan qeyrisindən kömək diləsə, Allahdan

---

[1] "əş-Şura" surəsi, 13.

başqasına sığınsa, Allahdan qeyrisi üçün qurban kəssə və hər hansı digər ibadəti Allahdan qeyrisinə yönəltsə, müşriklərdən sayılar və bununla da bütün əməlləri puç olar. Bu xüsusda Quranda belə buyurulur: **«Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər *Allaha* şərik qoşsan, əməlin puç olar və mütləq ziyana uğrayanlardan olacaqsan."»**[1]

## 2. "Lə ilahə illəllah" kəlməsinin (tövhidin) fəzilətləri: Tövhid peyğəmbərlərin عليهم السلام dəvətinin ən ali qayəsidir.

Allahın xəlq etdiyi ilk insan – Adəm peyğəmbər عليه السلام insanlara on əsr tövhidi təbliğ etmişdir.[2]

---

[1] "əz-Zumər" surəsi, 65.

[2] Adəm peyğəmbər عليه السلام yer üzündə bərqərar olduqdan sonra öz zürriyyətinə tövhidi – Allahın tək ilah olduğunu təbliğ etmiş və buna iman gətirməyin vacib olduğunu onlara bildirmişdir. Beləcə, insanlar min il tövhid üzərində sabit qalmış və Allaha şərik qoşmamışlar. Əbu Umamənin رضي الله عنه rəvayət etdiyi hədisdə xəbər verilir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib soruşdu: "Ya Rəsulullah, Adəm عليه السلام peyğəmbərmi olub?". Peyğəmbər ﷺ dedi: "Bəli, peyğəmbər olub və Allah onunla danışıb." Adam soruşdu: "Onunla Nuh peyğəmbər عليه السلام arasında nə qədər zaman keçib?" Peyğəmbər ﷺ dedi: "On əsr" ("Səhih İbn Hibban", 6190; "Silsilə əl-Əhadis əs-Səhihə", 2668); Digər hədisdə də Abdullah ibn Abbas رضي الله عنه demişdir: "Adəm peyğəmbərlə عليه السلام Nuh peyğəmbər عليه السلام arasında on əsrlik zaman keçmişdir. Bu əsrlər boyu insanlar haqq din (tövhid) üzərində sabit qalmış, sonra isə ixtilafa düşmüşlər. Nəhayət, Allah onlara müjdə verən və qorxudan peyğəmbərlər göndərmişdir" ("Təfsir ət-Təbəri", 2/194; "Təfsir İbn Kəsir", 1/250; "Mustədrək əl-Hakim", 2/546-547; "Silsilə əl-Əhadis əs-Səhihə", 7/854). Bu xüsusda Quranda belə buyurulur: **"İnsanlar vahid bir ümmət idilər, sonra ixtilafa düşdülər"** ("Yunus"surəsi, 19); **"İnsanlar tək bir ümmət idi. Allah *onlara* müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanların ixtilafa düşdükləri şeylərə dair onların arasında hökm versinlər".** ("əl-Bəqərə" surəsi, 213).

Onun ardından gələn peyğəmbərlər də عليهم السلام həmçinin öz qövmlərini tövhidə dəvət etmişlər:

**“Biz Nuhu öz qövmünə *elçi* göndərdik. O dedi: “Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa *ibadətə layiq* məbudunuz yoxdur.”**[1]

**“Ad qövmünə də qardaşları Hudu *elçi göndərdik*. O dedi: “Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa *ibadətə layiq* məbudunuz yoxdur.”**[2]

**“Səmud qövmünə də qardaşları Salehi *peyğəmbər göndərdik*. O dedi: “Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa *ibadətə layiq* məbudunuz yoxdur.”**[3]

**“İbrahimi də *xatırla!* Bir zaman o, öz qövmünə demişdi: “Allaha ibadət edin və Ondan qorxun! Heç bilirsinizmi bu sizin üçün nə qədər xeyirlidir? Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər.**

---

Deməк, insanlar min il Allahın tək İlah olduğuna etiqad etmiş və nəhayət, Nuh peyğəmbərin عليه السلام dövründə onların bir qismi Allaha şərik qoşmağa başlamışdır. Quran bunu bizə belə xəbər verir: ***“Nuh qövmü* dedi: “Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvanı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!”** (“Nuh” surəsi, 23). Ayəni izah edən səhabə İbn Abbas رضي الله عنهما demişdir: “Bunlar Nuh عليه السلام qövmündən olan əməlisaleh möminlərin adlarıdır. Onlar vəfat etdikdən sonra şeytan onların qövmünə: “Bu əməlisaleh kişilərin oturduqları yerə onların bütlərini qoyun (rəsmlərini çəkin) və bu bütlərə onların adlarını verin!”– deyə vəsvəsə vermişdir. Onlar həmin yerə o əməlisaleh kişilərin bütlərini qoydular, lakin bu bütlərə ibadət etmədilər. Nəhayət, o nəsil dünyadan köçdükdən sonra haqq unuduldu və insanlar o bütlələrə ibadət etməyə başladılar”. (“Səhih əl-Buxari”, 6/133).

[1] “əl-Əraf” surəsi, 59.

[2] “əl-Əraf” surəsi, 65.

[3] “Hud” surəsi, 61.

**Elə isə, ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız."[1]; "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa ibadət etdiyiniz şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz tək olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaq!"[2]**

**"*Şueyb dedi:* "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa *ibadətə layiq* məbudunuz yoxdur."[3]**

**"Yoxsa siz Yəquba ölüm gəldiyi zaman *onun* yanında idiniz? O zaman o, öz oğullarına demişdi: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" Onlar dedilər: "Sənin İlahına, ataların İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!"[4]**

**"*Yusuf* dedi: "Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən qövmün dinindən uzaqlaşmışam. Mən atalarım İbrahim, İshaq və Yəqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və *bütün* insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir. Ey mənim zindan yoldaşlarım, ayrı-ayrı ilahlar yaxşıdır, yoxsa Tək olan, *hər şeyə* qalib gələn Allah? Ondan savayı ibadət etdikləriniz sizin və atalarınızın qoyduğu adlardan başqa bir şey deyil. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. *Allah* sizə yalnız Ona ibadət etməyinizi əmr etmişdir. Doğru din budur, lakin insanların çoxu *bunu* bilmir."[5]**

---

[1] "əl-Ənkəbut" surəsi, 16-17.

[2] "əl-Mumtəhənə" surəsi, 4.

[3] "Hud" surəsi, 84.

[4] "əl-Bəqərə"surəsi, 133.

[5] "Yusuf" surəsi, 37-40.

***"Musa dedi: "Ey qövmüm,* sizin məbudunuz yalnız Özündən başqa heç bir *haqq* məbud olmayan Allahdır."**[1]

***"İsa öz qövmünə dedi:* "Ey İsrail oğulları, Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir. Zalımların heç bir yardımçısı yoxdur."**[2] **"Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün *gəlmişəm.* Allahdan qorxun və mənə itaət edin! Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə, Ona ibadət edin! Budur düz yol!"**[3]

Uca Allah "əl-Ənam" surəsinin 83-cü ayəsindən 90-cı ayəsinədək peyğəmbərləri tərif edir, onlardan bir qisminin adlarını sadalayır və nəhayət, bu surənin 90-cı ayəsində Peyğəmbərimizə ﷺ belə buyurur: **"Bunlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yoluna yönəl."**[4]

Digər bir ayədə belə buyurulur: ***"Allah* Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin *tövhid* müşriklərə ağır gəldi."**[5]

**«*Ey Muhəmməd!* De: "Mənə yalnız Allaha ibadət etmək və Ona şərik qoşmamaq əmr edilmişdir. Mən *sizi* yalnız Ona *ibadət etməyə* çağırıram. Mənim axır dönüşüm də yalnız Onadır!"»**[6]

---

1 "Ta ha" surəsi, 98.
2 "əl-Maidə" surəsi, 72.
3 "əz-Zuxruf" surəsi, 63-64.
4 "əl-Ənam" surəsi, 90.
5 "əş-Şura" surəsi, 13.
6 "ər-Rəd" surəsi, 36.

Ayələrdən aydın olur ki, uca Allah əvvəlki peyğəmbərlərə عليهم السلام əmr etdiyi kimi, Muhəmməd peyğəmbərə ﷺ də insanları tövhidə dəvət etməyi əmr edir.

Peyğəmbərlərin عليهم السلام hamısı eyni etiqadda olmuş, sadəcə onların şəriət qayda-qanunları fərqlənmişdir. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Peyğəmbərlər ata bir, ana ayrı övladlardır. Anaları ayrı olsa da, dinləri birdir."**[1] Deməək, İslam şəriətinin bizə öyrətdiyi tövhid, peyğəmbərlərin hamısının bəşəriyyətə təbliğ etdiyi tövhiddir. Bu da, o deməkdir ki, əgər insanlar Muhəmməd peyğəmbərin ﷺ təbliğ etdiyi tövhidi öyrənib, onun tələblərini yerinə yetirsələr, heç vaxt ixtilafa düşməz, əksinə, peyğəmbərlərin yoluna yönəlmiş olar, nəticədə də, bir ümmət olarlar.

**Tövhid şahidlik etməkdir:**

**"Allah ədalətli olaraq şahidlik etmişdir ki, Özündən başqa *ibadətə layiq* məbud yoxdur. Mələklər və elm sahibləri də, *buna şahidlik etmişlər*. Ondan başqa *ibadətə layiq* məbud yoxdur, Qüdrətlidir, Hikmət sahibidir."**[2]

**Tövhid Cənnətin açarıdır və onsuz Cənnətə daxil olmaq mümkün deyil:**

**«Şübhəsiz ki, "Allah Məryəm oğlu Məsihdir" deyənlər kafir oldular. Halbuki Məsih demişdi: "Ey İsrail oğulları, Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir. Zalımların heç bir yardımçısı yoxdur"».**[3]

---

[1] Səhih əl-Buxari, 3443; Səhih Muslim, 2365.

[2] "Ali-İmran" surəsi, 18.

[3] "əl-Maidə" surəsi, 72.

Hədisdə Peyğəmbər ﷺ demişdir:

**"Kim Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına, Onun Tək olduğuna, heç bir şəriki olmadığına, Muhəmmədin Onun qulu və rəsulu olduğuna, İsanın Allahın qulu, rəsulu, Məryəmə göndərdiyi kəlməsi və Onun ruhundan olduğuna, Cənnətin haqq, Cəhənnəmin də haqq olduğuna şahidlik etsə, nə əməl etmiş olursa-olsun, Allah onu Cənnətə daxil edər."[1]**

**"Lə ilahə illəllah" deyib, *qəlbən* bunu təsdiqlədiyi halda dünyadan köçən hər kəs mütləq Cənnətə girəcəkdir."[2]**

**Tövhid Cəhənnəmdən xilas olmaq üçün yeganə vasitədir:**

**"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, *lakin* bundan başqa *günahları* isə istədiyi kəsə bağışlayar. Allaha şərik qoşan kəs böyük bir günah edərək iftira atmış olur."[3]**

Hədisdə Peyğəmbər ﷺ demişdir:

**"Qəlbində arpa dənəsi ağırlığında iman olduğu halda: "Lə ilahə illəllah!"– deyən kəs Cəhənnəmdən çıxacaq. Qəlbində buğda dənəsi ağırlığında iman olduğu halda: "Lə ilahə illəllah!"– deyən kəs Cəhənnəmdən çıxacaq. Qəlbində zərrə ağırlığında iman olduğu halda: "Lə ilahə illəllah!"– deyən kəs Cəhənnəmdən çıxacaq."[4]**

**"Kim Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və Muhəmmədin Onun rəsulu olduğuna şəhadət versə, Allah Cəhənnəm odunu ona haram edər."[5]**

---

1 "Səhih əl-Buxari", 3435; "Səhih Muslim" 140.
2 "Səhih əl-Buxari", 1237; "Səhih Muslim" 94.
3 "ən-Nisa" surəsi, 48.
4 "Səhih əl-Buxari", 44; "Səhih Muslim", 193.
5 "Səhih əl-Buxari", 6423; "Səhih Muslim", 29.

### Tövhid ən böyük səadətə qovuşmaq üçün vasitədir:

Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "Mən Peyğəmbərdən ﷺ: "Ya Rəsulullah, Qiyamət günü sənin şəfaətin sayəsində ən böyük səadətə qovuşanlar kimlər olacaq?"– deyə soruşdum. Peyğəmbər ﷺ dedi: **"Ey Əbu Hureyra, mən sənin hədis öyrənməyə olan hərisliyini görüb düşünürdüm ki, səndən əvvəl heç kəs bu haqda məndən soruşmayacaq.** ***Bu dünyada*** **səmimi-qəlbdən "lə ilahə illəllah"– deyən kimsələr Qiyamət günü mənim şəfaətim sayəsində ən böyük səadətə qovuşacaqlar."**[1]

### Tövhid dünyada və Axirətdə əmin-amanlıqda olmaq üçün səbəbdir:

**"Siz, Allahın sizə, haqqında heç bir dəlil nazil etmədiyi şeyləri Ona şərik qoşmaqdan qorxmursunuzsa, mən sizin şərik qoşduqlarınızdan necə qorxa bilərəm? Əgər bilirsinizsə,** ***deyin görüm,*** **iki dəstədən hansı əmin-amanlıqda olmağa daha haqlıdır?" İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır."**[2]

### Tövhid səmavi kitabların nazil olma səbəbidir.

**"Əlif. Ləm. Ra.** ***Bu,*** **hikmət sahibi,** ***hər şeydən*** **xəbərdar** ***olan Allah*** **tərəfindən ayələri möhkəmləndirilmiş, sonra da müfəssəl izah edilmiş bir Kitabdır.** ***Bu, ona görədir*** **ki, Allahdan başqasına ibadət etməyəsiniz. Həqiqətən, mən Onun tərəfindən sizi xəbərdar edən və müjdələyənəm. Həm də, Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki,**

---

[1] "Səhih əl-Buxari", 99.

[2] "əl-Ənam" surəsi, 81-82.

**O, sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin. Əgər *Ondan* üz çevirsəniz, *bilin ki*, mən sizə üz verəcək əzəmətli günün əzabından qorxuram.""[1]**

**Tövhid yer üzündə küfrün kökünü kəsmək üçün vasitədir:**

**"Fitnə aradan qalxana qədər və din ancaq Allaha həsr edilənədək onlara qarşı vuruşun! Əgər *onlar savaşa* son qoysalar, *bilin ki,* düşmənçilik ancaq zalımlara qarşı olur."[2]**

**Tövhid mömini kafirdən ayırd etmək üçün meyardır:**

**"Sizi yaradan Odur. Kiminiz kafir, kiminiz də mömindir. Allah nə etdiklərinizi görür."[3]**

**Tövhid ən möhkəm dəstəkdir:**

**"Hər kim tağutu inkar edib, Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah eşidəndir, biləndir."[4]**

**Tövhid ən gözəl kəlmədir.**

**"Kim *haqqını* verir və *Allahdan* qorxursa və ən gözəl olanı *"lə ilahə illəllah" kəlməsini* təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik."[5]**

**Tövhid haqq kəlməsidir:**

**"Yalnız o kəslərdən başqa ki, onlar dediklərinin mənasını bildikləri halda, haqqa şəhadət verirlər."[6]**

---

1 "Hud" surəsi, 1-3.
2 "əl-Bəqərə" surəsi, 193.
3 "ət-Təğabun" surəsi, 2.
4 "əl-Bəqərə" surəsi, 256.
5 "əl-Leyl" surəsi, 5-7.
6 "əz-Zuxruf" surəsi, 86.

**“Haqqı gətirən və onu təsdiq edən kəslər, məhz onlar müttəqidirlər.”**[1]

**Tövhid təqva kəlməsidir:**

**“Allah Öz Rəsuluna və möminlərə *mənəvi* rahatlıq nazil etdi və onlara təqva kəlməsini vacib buyurdu. Onların buna daha çox haqqı var idi və onlar buna layiq idilər.”**[2]

**Tövhid möhkəm sözdür:**

**“Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar.”**[3]

**Tövhid ən gözəl sözdür:**

**“Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz** (lə ilahə illəllah) **kökü *yerdə* möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir.”**[4]

**Cinlər və insanlar tövhid tələbini yerinə yetirmək üçün xəlq edilmişlər:**

**“Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım.”**[5]

**Tövhid yaxşı əməllərin ən fəzilətlisidir:**

Rəvayət edilir ki, Əbu Zərr رضي الله عنه demişdir: “Bir dəfə mən Peyğəmbərə ﷺ dedim: “Ya Rəsulullah, mənə nəsihət et!” O buyurdu: **“Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın”.** Mən dedim: “Ya Rəsulullah, “Lə ilahə

[1] “əl-Zumər” surəsi, 33.
[2] “əl-Fəth” surəsi, 26.
[3] “İbrahim” surəsi, 27.
[4] “İbrahim” surəsi, 24.
[5] “əz-Zariyat” surəsi, 56.

illəllah" *deмək* yaxşı əməllərdən sayılırmı?" O buyurdu: **"Lə ilahə illəllah" əməllərin ən fəzilətlisidir".**[1]

## Tövhid ən fəzilətli zikrdir:

Peyğəmbər ﷺ demişdir: **"Ən fəzilətli zikr "lə ilahə illəllah!", ən fəzilətli dua isə "əlhəmdulilləh"dir."**[2]

**O, həmçinin demişdir: "Ən xeyirli dua Ərəfat günü edilən duadır və ən xeyirli söz, mənim və məndən əvvəlki peyğəmbərlərin dediyi bu sözdür:**

(( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

**"Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir."**[3]

## Tövhid tərəzidə ən ağır gələn kəlmədir:

Peyğəmbər ﷺ demişdir: **"Allahın peyğəmbəri Nuh عليه السلام ölüm ayağında ikən oğluna belə demişdir: "Mən sənə vəsiyyət etmək istəyirəm: sənə iki şeyi əmr edir və iki şeyi qadağan edirəm. Sənə "lə ilahə illəllah"ı əmr edirəm. Əgər yeddi göy və yeddi yer tərəzinin bir gözünə və "lə ilahə illəllah" digər gözünə qoyulsa, bu kəlmə onlardan ağır gələr. Həmçinin, yeddi göy və yeddi yer ucsuz-bucaqsız bir halqa olsaydı, "lə ilahə illəllah" onları yarıb keçərdi".**[4]

---

1 "Musnəd İmam Əhməd", 5/169; "Silsilə əl-Əhadis əs-Səhihə", 1373.
2 "Sunən ət-Tirmizi", 3680; "Silsilə əl-Əhadis əs-Səhihə", 1497.
3 "Sunən ət-Tirmizi", 3585; "Mişkat əl-Məsabih", 1503.
4 "Musnəd İmam Əhməd", 2/213; "Silsilə əl-Əhadis əs-Səhihə", 135.

## Tövhid imanın ən ali şöbəsidir:

Peyğəmbər ﷺ demişdir: **“İman yetmişdən artıq şöbədən ibarətdir. Bunun ən üstünü “Lə ilahə illəllah!” kəlməsidir.”**[1]

## Tövhid, savabı ən böyük olan əməldir:

Peyğəmbər ﷺ demişdir: **“Kim gün ərzində yüz dəfə:**

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

**“Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir!”– desə, on kölə azad etmiş sayılar, üstəlik, ona yüz savab yazılar, onun yüz günahı silinər, *bundan başqa, bu dualar* həmin gün axşama qədər onu şeytandan qoruyar və *bu duanı* ondan çox deyən kimsə istisna olmaqla, heç kəs onun gətirdiyindən əfzəl başqa bir şey gətirə bilməz.”**[2]

O, həmçinin demişdir: **“Kim hər səhər:**

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

**“Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir!”– desə, bu onun üçün İsmail عليه السلام nəslindən bir kölə azad etməyə bərabər olar, habelə, ona on savab yazılar, onun on günahı silinər, onun üçün on dərəcə**

---

1 “Səhih Muslim”, 153.

2 “Səhih əl-Buxari”, 6403; “Səhih Muslim”, 2071.

**yüksələr və bu, axşama kimi onu şeytandan qoruyar. Axşam bunu dedikdə də, həmçinin, bu onu səhərə qədər qoruyar."[1]**

Peyğəmbər ﷺ demişdir: **"Ümmətimdən bir kişi Qiyamət günü məxluqatın qarşısına gətiriləcək və ona *içində əməlləri yazılmış* doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın ölçüsü gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra qüdrətli və qüvvətli Allah buyuracaq: "Bunlardan hər hansı birini inkar edə bilərsənmi?" O: "Xeyr, ey Rəbbim!"– deyə cavab verəcək. Allah buyuracaq: "*Əməlləri* yazan gözətçi mələklərim sənə zülm ediblərmi? Bu qədər kitabın qabağında sənin savabın ola bilərmi?" O, qorxu içində: "Xeyr!"– deyə cavab verəcək. Allah buyuracaq: "Əksinə, dərgahımızda sənin üçün savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək". Bu vaxt onun qarşısına içində "Əşhədu ən lə iləhə illəllah və ənnə Muhəmmədən abduhu və rəsuluh!" yazılmış bir kağız parçası qoyulacaq. O deyəcək: "Ey Rəbbim! Bu qədər kitabın qabağında bu kağız parçası nə fayda verə bilər?" Allah buyuracaq: "Sənə zülm olunmayacaq!" Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq."[2]**

**Tövhid kəlməsini deyən mömin üçün Cənnətin səkkiz qapısı açılacaq:**

Rəsulullah ﷺ demişdir: **"Sizdən biriniz kamil şəkildə dəstəmaz aldıqdan sonra:**

((أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ))

---

1 "Sunən Əbu Davud", 5077; "Mişkat əl-Məsabih", 2395.

2 "Musnəd İmam Əhməd", 2/213; "Silsilə əl-Əhadis əs-Səhihə", 135.

**"Mən şəhadət verirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur və *şəhadət verirəm ki,* Muhəmməd Allahın qulu və rəsuludur"– desə, Cənnətin səkkiz qapısı onun üçün açılacaq və o, hansından istəsə, *oradan Cənnətə* daxil olacaq."[1]**

**Tövhid insanın həm bu dünyada, həm də Axirətdə xoşbəxt və ya bədbəxt olmasına, Qiyamət günü də kitabının ya sağ əlinə, ya da sol əlinə verilməsinə səbəbdir:**

**"*Qiyamət* günü siz *məhşərə* gətiriləcəksiniz və heç bir sirriniz gizlədilməyəcək. Kitabı sağ əlinə verilən kimsə deyəcək: "Budur, oxuyun kitabımı! Mən bilirdim ki, etdiklərimin hesabına qovuşacağam." O, uca Cənnətdə xoşbəxt həyat sürəcək – *elə bir Cənnətdə ki,* onun meyvələri lap yaxınlıqda olacaq. *Onlara*: "Keçmiş günlərdə etdiyiniz əməllərə görə nuşcanlıqla yeyin-için!"– *deyiləcək.* Kitabı sol əlinə verilən kimsə isə deyəcək: "Kaş, kitabım mənə verilməyəydi! Hesabımdan da xəbərim olmayaydı! Kaş, ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni *əzabdan* qurtarmadı. Hökmranlığım da məhv olub getdi." *Mələklərə deyiləcək*: "Onu yaxalayıb zəncirləyin! Sonra da Cəhənnəmə atın! Onu uzunluğu yetmiş dirsək olan zəncirə vurun! Çünki o, Böyük Allaha iman gətirmirdi və *heç kəsi* kasıbı yedirtməyə rəğbətləndirmirdi. Bu gün burada onun üçün bir dost tapılmaz. Qanlı irindən başqa yeməyi də yoxdur. Onu ancaq günahkarlar yeyər."[2]**

**Tövhidlə mömin adam dostunu düşmənindən ayırd edir:**

**"Allaha və Axirət gününə iman gətirən elə bir qövm tapa bilməzsən ki, onlar Allaha və Onun Rəsuluna düşmən**

---

[1] "Səhih Muslim", 234.

[2] "əl-Haqqə" surəsi, 18-37.

**olanlarla – onlar öz ataları, oğulları, qardaşları, qohumları olsalar belə, dostluq etsinlər. Allah onların qəlbinə iman yerləşdirmiş və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. *Allah* onları *ağacları və qəsrləri* altından çaylar axan cənnətlərə daxil edəcək. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidir. Şübhəsiz ki, məhz Allahın firqəsi nicat tapanlardır."**[1]

### Tövhid dinin beş təməlinin birincisidir:

Peyğəmbər ﷺ demişdir: **"İslam beş təməl üzərində qurulmuşdur: Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət vermək, namaz qılmaq, zəkat vermək, həcc etmək və ramazan orucunu tutmaq."**[2]

### Tövhid insanı qəbir əzabından qurtaran amildir:

Bu xüsusda rəvayət edilmiş hədisdə Bəra ibn Azib رضي الله عنه demişdir: "Biz Peyğəmbər ﷺ ilə birgə ənsardan olan bir kişinin dəfnində ikən Allahın rəsulu ﷺ qəbirin yanında oturdu, biz də sakitcə onun ətrafında oturduq. O, əlindəki çubuğu yerə vururdu. Sonra başını qaldırıb buyurdu: **"Qəbir əzabından Allaha sığının!"** O, bunu üç dəfə təkrar etdikdən sonra dedi: **"Mömin bəndə dünyadan köçüb axirətə qovuşduqda, göydən onun yanına üzləri günəş kimi parlaq olan mələklər enir. Onlar özləri ilə Cənnətdən kəfən və ətir gətirir, *onun* gözünün gördüyü son məsafədə oturub gözləyirlər. Sonra ölüm mələyi gəlib onun başının üstündə oturub deyir: "Ey gözəl ruh, Allahın mərhəmətinə və xeyir-duasına qovuşmaq**

---

[1] "əl-Mucadilə" surəsi, 22.

[2] "Səhih əl-Buxari", 8; "Səhih Muslim", 16.

üçün çıx *oradan*!" Nəhayət, mömin bəndənin ruhu bədənindən, su damcısı qabın ağzından axıb töküldüyü kimi çıxır. Ölüm mələyi ruhu götürdükdən sonra onu bir göz qırpımında, *oturub gözləyən* mələklərə təhvil verir, onlar da onu kəfənə büküb ətirləyirlər. Bundan sonra ondan, yer üzündə mövcud olan ən gözəl ətirin qoxusuna bənzər gözəl bir qoxu gəlir. Sonra mələklər onu götürüb göyə qaldırırlar. Göyə qalxarkən mələklərdən ibarət hansı toplumun yanından keçirlərsə, o toplum: "Görəsən, bu gözəl ruh kimin ruhudur?"– deyə soruşurlar. Onlar: "Bu, filankəsin oğlu filankəsdir"– deyə bu bəndəni, *camaatın* onu həyatda ikən çağırdığı ən gözəl adla çağırırlar. Nəhayət, onlar birinci göyə gəlib yetişdikdə, göy qapılarının açılmasını xahiş edir və onun qapıları taybatay açılır. Hər bir göyün mələkləri o ruhu növbəti göyə qədər beləcə yola salırlar. Nəhayət, yeddinci göyə gəlib çatdıqda, uca Allah buyurur: "Mənim qulum barədə olan qeydləri İlliyyuna yazın, sonra da onu qaytarın yerə. Çünki Mən söz vermişəm ki, onları torpaqdan yaratdım, öləndən sonra ora qaytaracaq və *Qiyamət günü* bir daha oradan *dirildib* çıxardacağam." Mələklər onu bədəninə qaytardıqdan sonra iki mələk gəlib onu otuzdurur və: "Rəbbin kimdir?"– deyə soruşurlar. O: "Rəbbim Allahdır!"– deyə cavab verir. Onlar: "Dinin nədir?"– deyə soruşurlar. O: "Dinim İslamdır!"– deyə cavab verir. Onlar: "Sizə göndərilmiş o kişi kim idi?"– deyə soruşurlar. O: "Bu, Allahın rəsulu ﷺ idi!"– deyə cavab verir. Onlar: "Həyatda ikən sən nə öyrəndin?"– deyə soruşurlar. O: "Mən Allahın Kitabını oxuyub, ona iman gətirdim və ona sadiq oldum"– deyə cavab verir. Bu vaxt göydən belə bir səda gəlir: "Mənim qulum doğru danışır.

**Cənnət nemətlərini onun önünə sərin və onun üçün Cənnətdən bir qapı açın!" Beləliklə, Cənnətin gözəl iyi və havası ona gəlir, qəbri də gözlərinin gördüyü son məsafəyə qədər genişlənir. Sonra gözəl görkəmli, əynində yaraşıqlı libası olan və üst-başından ətir iyi gələn bir kişi onun yanına gəlib deyir: "Səni sevindirəcək bir xəbərə sevin! Bu, sənə vəd olunan gündür!" Mömin: "Sən kimsən? Sənin üzündən xeyirxahlıq yağır!"– deyə soruşur. O da: "Mən sənin yaxşı əməlinəm!"– deyə cavab verir. Onda mömin dua edib deyir: "Allahım, qoy Qiyamət günü tez gəlsin ki, mən öz ailəmə qovuşub var-dövlətimə sahib olum.**

**Kafir bəndə dünyadan köçüb Axirətə qovuşduqda isə, göydən onun yanına zəhmli və qara simalı mələklər enirlər. Onlar özləri ilə Cəhənnəmdən giş** (cod parça) **gətirir və onun gözünün gördüyü son məsafədə oturub gözləyirlər. Sonra ölüm mələyi gəlib onun başının üstündə oturub deyir: "Ey yaramaz ruh, Allahın qəzəbi və qeyzinə düçar olmaq üçün çıx** ***oradan*****!" Nəhayət, onun ruhu bədənindən, tikanlı məftil yaş yunun arasından keçdiyi kimi çıxır. Ölüm mələyi ruhu götürdükdən sonra onu bir göz qırpımında,** ***oturub gözləyən*** **mələklərə təhvil verir, onlar da onu gişə bükürlər. Bundan sonra ondan yer üzündə mövcud olan ən pis iyə bənzər bir iy gəlir. Sonra mələklər onu götürüb göyə qaldırırlar. Göyə qalxarkən, mələklərdən ibarət hansı toplumun yanından keçirlərsə, o toplum: "Görəsən, bu iyrənc ruh kimin ruhudur?"– deyə soruşurlar. Onlar: "Bu, filankəsin oğlu filankəsdir"– deyə bu bəndəni,** ***camaatın*** **onu həyatda ikən çağırdığı ən pis adla çağırırlar. Nəhayət, onlar birinci göyə gəlib yetişdikdə**

**göy qapılarının açılmasını xahiş edirlər, lakin onun qapıları açılmır.**

Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: **"Şübhəsiz ki, ayələrimizi yalan sayanlara və təkəbbürlüklə onlardan üz çevirənlərə göyün qapıları açılmayacaq və dəvə iynənin gözündən keçməyincə onlar Cənnətə girməyəcəklər."**[1]

Sonra Peyğəmbər ﷺ davam edib dedi: ***"Allah buyurur:* "Mənim qulum barədə olan qeydləri yerin alt təbəqəsində yerləşən Siccinə yazın. Çünki Mən söz vermişəm ki, onları torpaqdan yaradıb, öləndən sonra ora qaytaracaq və *Qiyamət günü* bir daha oradan *dirildib* çıxardacağam". Mələklər onun ruhunu göydən aşağı atırlar.**

Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: **"Kim Allaha şərik qoşsa, sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar."**[2]

Sonra Peyğəmbər ﷺ davam edib dedi: **"Onun ruhu bədəninə qayıtdıqdan sonra iki mələk gəlib onu otuzdurur və: "Rəbbin kimdir?"– deyə soruşurlar. O, mızıldanıb deyər: "M-mm... bilmirəm!" Onlar: "Sizə göndərilmiş o kişi kim idi?"– deyə soruşurlar. O, yenə mızıldanıb deyər: "M-mm... bilmirəm!" Bu vaxt göydən belə bir səda gələr: "O yalan danışır. Onun yolunu alovlandırın və onun üçün Cəhənnəmdən bir qapı açın." Beləliklə, Cəhənnəm atəşi və alovlu külək ona dəyər, qəbri də o qədər sıxılır ki, qabırğaları bir-birinə keçər. Sonra eybəcər sifətli, əynində nimdaş paltarı olan və üst-başından pis qoxu gələn bir kişi onun yanına gəlib deyir:**

---

1 "əl-Əraf" surəsi, 40.

2 "əl-Həcc" surəsi, 31.

**“Mən səni kədərli bir xəbərlə müjdələyirəm. Bu, sənə vəd olunan gündür!” Kafir: “Sən kimsən? Sənin üzündən şər yağır!”– deyə soruşur. O da: “Mən sənin yaramaz əməllərinəm!”– deyə cavab verir. Onda, kafir yalvarıb deyir: “Allahım, qoyma, Qiyamət qopsun!”**[1]

**Tövhid əməllərin qəbul olunması üçün səbəbdir:**

***“Ey Peyğəmbər!*** **Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: “Əgər** ***Allaha*** **şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan.”**[2]

**Tövhid sayəsində insan hər bir xeyrə nail olur:**

“İbrahim” surəsindəki ayələrdə “lə ilahə illəllah” kəlməsi kökü *yerdə* möhkəm olan, budaqları isə göyə yüksələn gözəl ağaca bənzədildikdən sonra belə deyilir: **“O** ***ağac*** **Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir.”**[3]

**Tövhid insanı qüdrətli edir:**

**“Qüdrət yalnız Allaha, Onun rəsuluna və möminlərə məxsusdur, lakin münafiqlər** ***bunu*** **bilmirlər.”**[4]

**Tövhidi ucaltmaq üçün aparılan döyüş cihad sayılır:**

**“Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun!”**[5]

Rəvayət edilir ki, bir gün bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: “*İnsanlardan* kimisi qənimət əldə etmək, kimisi ad-san qazanmaq, kimisi də özünü göstərmək üçün vuruşur.

---

[1] “Musnəd İmam Əhməd”, 18534; “Səhih əl-Cami”, 1676.
[2] “əz-Zumər” surəsi, 65.
[3] “İbrahim” surəsi, 24-25.
[4] “əl-Munafiqun” surəsi, 8.
[5] “əl-Bəqərə” surəsi, 193 və “əl-Ənfal” surəsi, 39.

Bunlardan hansı biri Allah yolunda *döyüş* sayılır?" Peyğəmbər ﷺ dedi: **"Kim Allahın kəlməsi** (lə ilahə illəllah) **hər şeydən uca olsun deyə vuruşursa, o, Allah yolundadır."**[1]

## Tövhid sıxıntını aradan qaldırır:

Peyğəmbər ﷺ demişdir: **"Zünnun[2] balığın qarnında ikən belə dua etmişdir:**

﴿ لا إِلَهَ إِلاَّ أَنْتَ سُبْحَانَكَ إِنِّي كُنتُ مِنَ الظَّالِمِينَ ﴾

**"Səndən başqa *ibadətə layiq* məbud yoxdur. Sən paksan, müqəddəssən! Mən isə həqiqətən zalımlardan olmuşam."**[3]

Peyğəmbər ﷺ davam edib dedi: **"Bu duanı edən elə bir müsəlman yoxdur ki, Allah onun duasını qəbul etməsin."**[4]

Həmçinin, rəvayət edilir ki, sıxıntı anında Peyğəmbər ﷺ belə dua edərdi:

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ الْعَظِيمُ الْحَلِيمُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ الْعَرْشِ الْعَظِيمِ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ السَّمَاوَاتِ وَرَبُّ الأَرْضِ وَرَبُّ الْعَرْشِ الْكَرِيمِ))

**"Əzəmətli və Həlim Allahdan başqa *ibadətə layiq* məbud yoxdur! Əzəmətli Ərşin Rəbbi olan Allahdan başqa *ibadətə layiq* məbud yoxdur! Göylərin Rəbbi, yerin Rəbbi və kəramətli Ərşin Rəbbi olan Allahdan başqa *ibadətə layiq* məbud yoxdur!"**[5]

---

1 "Səhih əl-Buxari", 2810.

2 Yəni, Yunus peyğəmbər عليه السلام.

3 "əl-Ənbiya" surəsi, 87.

4 "Sunən ət-Tirmizi", 5/529; "Səhih ət-Tirmizi", 3/168.

5 "Səhih əl-Buxari", 6346 və 7326; "Səhih Muslim", 8/85.

**Tövhid insanın əxlaqlı olması üçün səbəbdir:**

Belə ki, tövhidi təbliğ etmiş peyğəmbərlərin عليهم السلام, o cümlədən də Peyğəmbərimizin ﷺ əxlaq nümunəsi olması hər kəsə bəllidir. Quranda Peyğəmbərimiz ﷺ barədə belə buyurulur: **"Həqiqətən də, sən böyük əxlaq sahibisən!"**[1]

**Tövhidi səmimi-qəlbdən qəbul edən, mənasını dərk edən və tələblərini yerinə yetirən kimsəyə Allah imanı sevdirər, onun qəlbini gözəlləşdirər, orada küfrə, günaha və asi olmağa qarşı nifrət oyadar və onu doğru yola yönəldər:**

**"Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da onlardır."**[2]

**Tövhid Allahın möhkəm ipi olan Quranın əsas əmridir:**

**"Hamınız Allahın ipindən[3] möhkəm yapışın."**[4]

**Tövhid mömin insana ixlaslı olmağı öyrədir və o kimsəni şeytan yoldan çıxarda bilmir:**

Uca Allah İblisə vaxtı məlum olan günə qədər möhlət verdikdə, o, belə demişdir: "**Sənin qüdrətinə and olsun ki, onların**

---

[1] "əl-Qələm" surəsi, 4.

[2] "əl-Hucurat" surəsi, 7.

[3] "Ali-İmran" surəsi, 103.

[4] Ayədə "ip" deyildikdə, Quran qəsd edilir. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ səhabələrinə: "Sevinin, sevinin! Məgər siz Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və mənim Allahın rəsulu olduğuma şahidlik etmirsinizmi?"– demiş, səhabələr: "Əlbəttə, edirik"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Bu Quran, bir ipdir. Onun bir ucu Allahın əlində, digəri də sizin əlinizdədir. Ondan möhkəm yapışın! Siz ondan möhkəm tutduqca, heç vaxt zəlalətə düşməz və əsla həlak olmazsınız!"** ("Səhih ibn Hibban", 122; "Silsilə əl-Əhadis əs-Səhihə", 713).

**hamısını yoldan çıxaracağam. Yalnız Sənin seçilmiş *ixlaslı* qullarından başqa!”**[1]

**Tövhidi yaşayan mömini mələklər ölüm ayağında Cənnətlə müjdələyirlər:**

**“Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub *deyirlər:* “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli *Allah tərəfindən verilən* ziyafət kimi.”**[2]

Hədisdə də Rəsulullah ﷺ belə demişdir: **“İnsan ölüm yatağında ikən mələklər onun yanına enir. Əgər o, əməlisaleh insandırsa, mələklər ona belə buyururlar: “Ey gözəl bədəndə olan gözəl can, tərifə layiq olduğun halda çıx oradan! Sənə verilən rahatlığa və ruziyə,**[3] **üstəlik, Rəbbinin sənə qəzəblənməməsinə sevin!” Mələklər, onun canı bədənindən çıxanadək belə deməyə davam edərlər.”**[4]

**Tövhidi təsdiqləyənlər, yəni möminlər üçün mələklər dua edirlər:**

**“Ərşi daşıyanlar və onun ətrafındakılar öz Rəbbinə həmd edərək onu tərifləyir, Ona iman gətirir və möminlər üçün**

---

[1] “Sad” surəsi, 82-83.

[2] “Fussilət” surəsi, 30-32.

[3] Bu xüsusda Quranda belə buyurulur: **“*Can* boğaza yetişdiyi zaman siz *can verən adama* baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə *bunu* görmürsünüz. Madam ki, siz *iddianıza görə* haqq-hesab olunmayacaqsınız və doğru danışanlarsınız, onda, o canı geri qaytarın. Amma əgər o, *Allaha* yaxın olanlardandırsa, onda o, rahatlığa, gözəl ruziyə və Nəim bağına yetişər.”** (“əl-Vaqiə” surəsi, 83-89).

[4] “Sunən İbn Macə”, 4252; “Mişkat əl-Məsabih”, 1627.

**bağışlanma diləyirlər: "Ey Rəbbimiz! Sənin rəhmətin və elmin hər şeyi əhatə etmişdir. Tövbə edib, Sənin yolunla gedənləri bağışla və onları Cəhənnəm əzabından qoru! Ey Rəbbimiz! Onları da, onların atalarından, zövcələrindən və nəsillərindən olan əməlisaleh kimsələri də onlara vəd etdiyin Ədn cənnətlərinə daxil et. Həqiqətən, Sən Qüdrətlisən, Hikmət sahibisən. Onları pisliklərdən qoru. O gün Sən kimi pisliklərdən qorusan, ona rəhm etmiş olarsan. Məhz bu, böyük uğurdur."[1]**

## Tövhid əhli Qiyamət günü Allahı görəcək:

**"Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da artığı vardır."[2]**

**"Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan da artığı vardır."[3]**

Hər iki ayədə **"bundan da artığı"** deyildikdə, Allahı görmək qəsd edilir.[4] Yəni, "lə ilahə illəllah" deyən, səmimi-qəlbdən ona etiqad edən və onun tələblərini yerinə yetirən möminlər Allahı görəcəklər. Bu isə yalnız tövhid əhlinə məxsusdur. Çünki yuxarıda da qeyd etdiyimiz kimi, ən fəzilətli əməl elə tövhiddir. Kafirlər isə Allahı görməyəcəklər. **"Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək! Sonra onlar Cəhənnəmə girəcəklər. Sonra *onlara* deyiləcək: "Budur, sizin yalan hesab etdiyiniz *Cəhənnəm*!"[5]**

---

[1] "Ğafir" surəsi, 7-9.

[2] "Yunus" surəsi, 26.

[3] "Qaf" surəsi, 35.

[4] "Təfsir ət-Təbəri", 15/62; "Təfsir əl-Qurtubi", 8/330; "Təfsir İbn Kəsir", 2/504-505; "Təfsir əl-Bəğəvi", 4/130; "əd-Durr əl-Mənsur", 4/356; "Fəth əl-Qədir", 2/636; "Təfsir əs-Sədi", 1/362; "Ədva əl-Bəyan", 1/489; "Əysər ət-Təfasir", 2/466).

[5] "əl-Mutaffifin" surəsi, 15.

Həmçinin "əl-Qiyamə" surəsinin 22 və 23-cü ayələri də möminlərin Allahı görəcəklərinə dəlalət edir: **"O gün *bir çox* üzlər parlayacaq və öz Rəbbinə baxacaqdır."**

Bu iki ayədəki kəlmələrdən hər biri möminlərin, yəni tövhid əhlinin Qiyamət günü Allahı görəcəklərinə dəlalət edir.

Səhih hədisdə Peyğəmbər ﷺ demişdir: **"Cənnət əhli Cənnətə daxil olduğu zaman Allah Təbarəkə və Təalə belə buyuracaq: "İstəyirsinizmi, sizə nə isə artırım?" Onlar deyəcəklər: "Sən bizim üzümüzü ağ etmədinmi?! Bizi atəşdən qurtarıb, Cənnətə daxil etmədinmi?!" Bunun ardından Allah örtüyü qaldıracaq. Artıq onlara özlərinin İzzətli və Qüdrətli Rəbbinə baxmaqdan daha əziz bir şey verilməyəcəkdir."**[1]

Bu yerdə Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə hamımız üçün Allaha dua edib deyirik:

((اللَّهُمَّ نَسْأَلُكَ لَذَّةَ النَّظَرِ إِلَى وَجْهِكَ))

**"Allahım, Sənin üzünə baxmağın ləzzətini Səndən diləyirik!"**[2]

**Tövhid əhlini uca Allah şərdən qoruyur:**

**"Şübhəsiz ki, Allah iman gətirənləri mühafizə edir."**[3]

**Tövhid əhlinə uca Allah bu dünyada gözəl həyat, Axirətdə isə Cənnəti bəxş edir:**

**"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq."**[4]

---

1 "Səhih Muslim", 449.
2 "Sunən ən-Nəsai", 1305; "Səhih əl-Cami", 1301.
3 "əl-Həcc" surəsi, 38.
4 "ən-Nəhl" surəsi, 97.

**Tövhid insanlar arasında həqiqi doğmalıq yaradır:**

**"Allah sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı."[1]**

**"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır."[2]**

**"Möminlər, həqiqətən də qardaşdırlar."[3]**

Deməк, adam Allahın Tək İlah olduğuna iman gətirdikdə, İbrahim عليه السلام onun atası, Peyğəmbərin ﷺ zövcələri onun anaları, möminlər də onun qardaş və bacıları hesab edilirlər.

**Tövhid səbəbi ilə möminlər biri-biriləri üçün Allahdan bağışlanma diləyirlər:**

**"Bil ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə."[4]**

**"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!"[5]**

**Tövhid əbədi qalacaq bir kəlmədir:**

**"Bir zaman İbrahim öz atasına və qövmünə belə demişdi: "Mən sizin ibadət etdiklərinizdən uzağam. Yalnız məni yaradandan başqa! Şübhəsiz ki, O, məni doğru yola yönəldəcək."**

---

1 "əl-Həcc" surəsi, 78.

2 "əl-Əhzab" surəsi, 6.

3 "əl-Hucurat" surəsi, 10.

4 "Muhəmməd" surəsi, 19.

5 "əl-Həşr" surəsi, 10.

**O, bu *lə ilahə illəllah kəlməsini* öz nəsli arasında daimi qalacaq bir kəlmə etdi ki, bəlkə *doğru yola* qayıtsınlar."[1]**

Burada İbrahimin ﷷ: **"Mən sizin ibadət etdiklərinizdən uzağam"**– sözü, "la ilahə/yoxdur haqq məbud", **"Yalnız məni yaradandan başqa!"**– sözü isə "illəllah/Allahdan başqa" deməkdir.

**Tövhid ən uca kəlmədir.**

**"Allah kafirlərin sözünü alçaltdı. Yalnız Allahın Sözü ucadır."[2]**

**Tövhid nicat kəlməsidir:**

**"Ey qövmüm, necə olur ki, mən sizi nicat tapmağa çağırdığım halda, siz məni oda çağırırsınız?"[3]**

Ayədə nicat deyildikdə, "lə ilahə illəllah" qəsd edilir.

**Tövhid əsl din sayılır:**

**"Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– *deyirlər.* Əlbəttə ki, Allah ixtilaf etdikləri məsələlər barədə onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafir olan kimsəni doğru yola yönəltməz."[4]**

**Tövhid düz yol sayılır:**

**"Bizi düz yola yönəlt!"[5]**

**"Bu, Mənim düz yolumdur, onu tutub gedin."[6]**

---

1 "əz-Zuxruf" surəsi, 26-28.
2 "ət-Tovbə" surəsi, 40.
3 "Ğafir" surəsi, 41.
4 "əz-Zumər" surəsi, 3.
5 "əl-Fatihə" surəsi, 4.
6 "əl-Ənam" surəsi, 153.

**“Həqiqətən, sən *onları* düz yola – göylərdə və yerdə olanların sahibi Allahın yoluna yönəldirsən.”**[1]

**Tövhid sayəsində möminlər düşmənə qalib gəlirlər:**

**“Ey iman gətirənlər! *Kafir* bir dəstə ilə üz-üzə gəldikdə, möhkəm durun və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız.”**[2] Ən əzəmətli zikr isə “lə ilahə illəllah”dır.

**Tövhid sayəsində Allah möminləri yer üzünün varisləri edir:**

**“Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra əminliklə əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar.”**[3]

**Tövhidi təsdiqləyənin qanı və malı toxunulmazdır:**

Əbu Malik Səd İbn Tariq atasından rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **“Kim “lə ilahə illəllah” desə və Allahdan qeyrisinə ibadət etməyi inkar etsə, onun malı və canı toxunulmaz olar. *Gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir.”**[4]

**Tövhid sayəsində Qiyamət günü bəzi üzlər ağaracaq, bəziləri də qaralacaq:**

**“O gün *neçə-neçə* üzlər ağaracaq, *neçə-neçə* üzlər də qaralacaqdır. Üzləri qaralan kəslərə: “İman gətirdikdən sonra**

---

1 “əş-Şura” surəsi, 52-53.
2 “əl-Ənfal” surəsi, 45.
3 “ən-Nur” surəsi, 55.
4 “Səhih Muslim”, 23.

**kafirmi oldunuz? Elə isə, küfr etdiyinizə görə dadın əzabı!"–** ***deyiləcəkdir*****. Üzləri ağ olan kəslər isə Allahın mərhəməti içərisində olacaq və onlar orada əbədi qalacaqlar."**[1]

**Tövhid sayəsində Allah insanı ucaldır:**

Qüdrətli Allah həbəşi Bilal, Xabbəb ibn əl-Ərat, Suheyb ər-Rumi və Salman əl-Farisi رضي الله عنهم kimi kölələri ucaltmışdır.

## 3. "Lə ilahə illəllah"ın şərtləri.

İslam alimləri bu kəlmənin yeddi şərti olduğunu söyləmişlər. Bu şərtlərdən birini tərk edən, habelə, bunların hamısını yerinə yetirməklə yanaşı, bunlardan birinə zidd olan əməli edən adam müsəlman sayılmır. Bu şərtləri bilmək deyəndə, onları sadəcə əzbərdən bilmək qəsd edilmir. Bu şərtləri əzbərdən bilən bir çox insanlar var ki, onlar bu şərtlərin heç birinə və ya bir qisminə əməl etmirlər. Həmçinin, neçə-neçə möminlər var ki, bu şərtləri əzbərdən bilməsələr də, onlara əməl edirlər. Qeyd edək ki, İslam alimləri bu şərtləri ümumi dəlillərdən – Quran ayələrindən və Peyğəmbərin ﷺ hədislərindən götürmüşlər.

**"Lə ilahə illəllah"ın yeddi şərti bunlardır:**

**Birinci şərt** "lə ilahə illəllah" sözünün nəyi isbat və nəyi inkar etdiyini, üstəlik, bu isbat və inkarın hansı əməlləri tələb etdiyini – yəni nəyi buyurduğunu və nəyi qadağan etdiyini bilməkdir. Əgər adam Allahın Tək İlah olduğunu, Ondan başqa ilahların isə batil olduğunu qəbul etsə, üstəlik də bildiklərinə əməl etsə, "lə ilahə illəllah" sözünün mənasını başa düşmüş sayılar.

---

[1] "Ali-İmran" surəsi, 106-107.

Yox əgər adam Allahın ibadətə layiq olan Tək məbud olduğunu bilməsə və Allahdan qeyrisinə, yaxud Allahla yanaşı başqa bir ilaha ibadət etməyin icazəli olduğunu qəbul etsə, artıq müşrik sayılır. Beləsi, "lə ilahə illəllah" kəlməsinin şərtini tərk etmiş sayılır. Bu xüsusda, Quranda belə buyurulur:

**"De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?** ***Bundan*** **ancaq ağıl sahibləri ibrət alar."**[1]

**"Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar."**[2]

Hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Kim Allahdan başqa** ***ibadətə layiq*** **məbudun olmadığını bildiyi halda ölərsə, Cənnətə girər."**[3]

Süleyman ibn Abdullah ﵀ bu hədisi izah edərkən demişdir: "Lə ilahə illəlah" demək, Cənnətə daxil olmaq və Cəhənnəm əzabından qurtulmaq üçün əsas səbəb, həm də qəbul olunması tələb olunan bir şeydir. Tələb olunan hər bir iş isə özünəməxsus şərtlərə riayət etməklə və buna əngəl törədəcək maneələrdən çəkinməklə yerinə yetirilməlidir. Bu şərtlərdən hər hansı birinin yerinə yetirilmədiyi təqdirdə, Cənnəti qazanmaq mümkün olmur. Odur ki, Həsən əl-Bəsridən ﵀: "Bəzi adamlar deyirlər ki: "Kim: "lə ilahə illəllah"– desə, Cənnətə daxil olar?"– deyə soruşduqda, o, belə cavab vermişdir: "Kim: "lə ilahə illəllah"– desə, sonra da bu kəlmənin haqqını ödəsə və buna aid olan vacibləri yerinə yetirsə, Cənnətə daxil olar." Vəhb ibn Munəbbihdən ﵀: "Məgər "lə ilahə illəllah" kəlməsi Cənnətin açarı deyilmi?"– deyə soruşulduqda, o demişdir: "Elədir, lakin

---

[1] "əz-Zumər" surəsi, 9.
[2] "Fatir" surəsi, 28.
[3] "Səhih Muslim", 26.

hər bir açarın dişləri vardır. Əgər sən dişli bir açar gətirsən, o sənin üçün qapını açar, əks təqdirdə isə açmaz."[1]

**İkinci şərt** yəqin etməkdir, yəni şəhadət kəlməsinin mənasını anlayaraq, onu qəlbən yəqinliklə – şəksiz təsdiqləməkdir. Onu tələffüz edən adam dediyinə, yəni, Allahın ibadətə layiq olan ilah olduğuna, Allahdan başqa ilahların isə batil olduğuna, üstəlik, hər hansı bir ibadətin Allahdan qeyrisinə yönəldilməsinin qadağan edildiyinə yəqinliklə iman gətirməlidir. Əgər adam Allahın Tək İlah olduğuna şəkk edərsə, yaxud Allahdan başqa məbudun ibadətə haqqı olduğuna etiqad edərsə, gətirdiyi şəhadəti batil olar. Bu xüsusda Quranda belə buyurulur:

**"O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar."[2]**

**"Möminlər ancaq Allaha və Onun rəsuluna iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! *İmanlarında* sadiq olanlar da məhz onlardır."[3]**

Hədisdə Peyğəmbər ﷺ demişdir:

**"Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur və *şahidlik edirəm ki,* mən Allahın rəsuluyam! Bu iki *kəlməyə* şəkk etməyərək, bunlarla Allaha qovuşan hər kəs mütləq Cənnətə girəcəkdir."[4]**

Başqa bir rəvayətdə də xəbər verilir ki, Peyğəmbər ﷺ Əbu Hureyraya رضي الله عنه belə buyurmuşdur: **"Ey Əbu Hureyra,**

---

[1] "Təysir əl-Aziz əl-Həmid", 1/111.
[2] "əl-Bəqərə" surəsi, 4.
[3] "əl-Hucurat" surəsi, 15.
[4] "Səhih Muslim" 27.

[buradan qalxıb getdikdə] **bu bostanın çölündə, Allahdan başqa** ***ibadətə layiq*** **məbudun olmadığına şahidlik gətirən və buna yəqinliklə inanan kəsə rast gəlsən, onu Cənnətlə müjdələ!"**[1]

Hədislərdən aydın başa düşülür ki, nə tövhid kəlməsinə iman gətirmədən, onu tələffüz etməyin, nə də tələffüz etmədən, ona inanmağın faydası var. Bunları cəm etmək vacibdir.

**Üçüncü şərt** qəbul etməkdir, yəni, bu kəlmənin özündə əhatə etdiyi hər bir şeyi həm qəlb, həm də dil ilə təsdiqləmək, bu xüsusda varid olmuş dəlilləri təsdiqləmək, Allahın və Onun rəsulunun ﷺ dediyi hər sözü tərəddüdsüz qəbul etmək və bu xüsusda varid olanları inkar etməməkdir. Bu barədə Quranda belə buyurulur:

**"*Allahın* rəsulu öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də *iman gətirdilər*. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. *Onlar dedilər*: "Biz Onun elçiləri arasında fərq qoymuruq!" *Həmçinin* dedilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!"**[2]

**"Allah və Onun rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür."**[3]

**"Onlara: "Allahdan başqa *ibadətə layiq* məbud yoxdur!"– deyildikdə, təkəbbür göstərirlər."**[4]

---

[1] "Səhih Muslim", 31.
[2] "əl-Bəqərə" surəsi, 285.
[3] "əl-Əhzab" surəsi, 36.
[4] "əs-Saffat" surəsi, 35.

**Dördüncü şərt** tabe olmaqdır, yəni Allahın və Onun elçisinin ﷺ buyurduqlarına əməl etmək və qadağan etdiklərindən çəkinməkdir. Bu xüsusda Quranda belə buyurulur:

**“Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar.”**[1]

**“Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan, sənə tam şəkildə təslim olmayınca, iman gətirmiş olmazlar.”**[2]

**Beşinci şərt** sadiq olmaqdır, yəni, adamın Allaha olan imanı və əqidəsi də düzgün olmalıdır. İmanında sadiq qalan kimsələr Quranda belə vəsf edilir:

**“Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər var. Onlardan kimisi əhdini yerinə yetirib, şəhid olmuş, kimisi də** ***şəhid olmasını*** **gözləyir. Onlar** ***əhdlərini*** **əsla dəyişdirməyiblər.”**[3]

**“Haqqı gətirən və onu təsdiq edən kəslər əsl müttəqilərdir.”**[4]

Hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Sevinin və özünüzdən sonrakıları da müjdələyin ki, hər kim sidqiürəkdən “lə ilahə illəllah” deyərsə, Cənnətə daxil olar.”**[5]

---

[1] “Loğman” surəsi, 22.

[2] “ən-Nisa” surəsi, 65.

[3] “əl-Əhzab” surəsi, 23.

[4] “əz-Zumər” surəsi, 33.

[5] “Musnəd İmam Əhməd”, 4/411; “Şərh Muşk əl-Əsar”, 4003; “Silsilə əl-Əhadis əs-Səhihə”, 712.

Qeyd etmək lazımdır ki, sidqin əksi etibarsızlıqdır. Odur ki, imanında və əqidəsində sadiq olmayan kimsə dili ilə "lə ilahə illəllah" desə də, mömin sayılmaz. Beləsi münafiq sayılır, münafiqlər isə Quranda belə vəsf edilirlər:

**"Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın rəsulusan!"– deyirlər. Allah bilir ki, sən Onun rəsulusan. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar."**[1]

**"İnsanlardan elələri də var ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq"– deyirlər."**[2]

**Altıncı şərt** ixlaslı olmaqdır, yəni adamın dediyi söz və etdiyi əməl səmimi-qəlbdən, Allahın rizasını qazanmaq xatirinə olmalıdır. Bu xüsusda Quranda belə buyurulur:

**"Onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!"**[3]

**"De: "Mən dinimi məhz Allaha məxsus edərək yalnız Ona ibadət edirəm."**[4]

**Yeddinci şərt** sevməkdir, yəni "lə ilahə illəllah" kəlməsini sevməkdir. Bu kəlməni sevən mömin Allahı və Onun elçisini ﷺ sevmiş sayılır. Allaha olan sevgini sübuta yetirmək üçün isə, Onun buyururqlarını yerinə yetirmək və qadağan etdiyi əməllərdən çəkinmək, habelə, Onun sevdiyini sevmək və nifrət etdiyinə nifrət etmək gərəkdir.

---

1 "əl-Munafiqun" surəsi, 1.
2 "əl-Bəqərə" surəsi, 8.
3 "əl-Bəyyinə" surəsi, 5.
4 "əz-Zumər" surəsi, 14.

## 4. Şəhadəti batil edən və insanı İslamdan çıxaran əməllər:

**Birincisi,** Allaha şərik qoşmaq:

**"Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz. Bundan başqa** ***günahları*** **isə istədiyi kimsəyə bağışlar. Allaha şərik qoşan kəs, əlbəttə ki, uzaq bir azğınlığa düşmüşdür."**[1]

**İkincisi,** Allah yaxınlaşmaq üçün vasitə tutmaq:

**"Doğrusu, əsl din yalnız Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"–** ***deyirlər.*** **Əlbəttə ki, Allah ixtilaf etdikləri məsələlər barədə onların arasında Öz hökmünü verəcək. Şübhəsiz ki, Allah yalançı və kafir olan kimsəni doğru yola yönəltməz."**[2]

**Üçüncüsü,** kafiri kafir saymamaq:

**"Hər kim tağutu inkar edib, Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah** ***hər şeyi*** **eşidəndir,** ***hər şeyi*** **biləndir."**[3]

**"Kim İslamdan başqa bir din arayarsa,** ***bilsin ki, o din*** **ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."**[4]

**Dördüncüsü,** şəriətlə bağlı olan məsələlərdə hər hansı bir kimsənin hökmünün Peyğəmbərin ﷺ hökmündən üstün olduğunu iddia etmək:

**"Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da**

---

[1] "ən-Nisa" surəsi, 116.

[2] "əz-Zumər" surəsi, 3.

[3] "əl-Bəqərə" surəsi, 256.

[4] "Ali-İmran" surəsi, 28.

**verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan, sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar."**[1]

**Beşincisi,** Peyğəmbərin ﷺ təbliğ etdiyi hər hansı bir əmələ nifrət etmək:

**"Qoy, məhv olsun kafirlər! *Allah* onların əməllərini puça çıxardar. Bu, ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət etdilər, O da, onların əməllərini puça çıxartdı."**[2]

**"Münafiqlər sizin yanınıza gəldikdə: "Biz iman gətirdik!"– deyirlər. Halbuki, *sizin yanınıza* küfrlə gəlmiş, küfrlə də çıxıb getmişlər. Allah onların gizlətdiklərini daha yaxşı bilir."**[3]

**Altıncısı,** Muhəmməd Peyğəmbərin ﷺ təbliğ etdiyi dinə istehza etmək:

**"Onlardan *nə üçün istehza etdiklərini* soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!" De: "Allaha, Onun ayələrinə və Onun elçisinəmi istehza edirsiniz?! Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz".**[4]

**"*Allah* Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini, yaxud onlara istehza olunduğunu eşitdiyiniz zaman, *kafirlər* başqa bir söhbətə keçməyincə, onlarla bir yerdə oturmayın. Yoxsa, siz də onların tayı olarsınız."**[5]

**Yeddincisi,** sehrlə məşğul olmaq:

**"Onlar Süleymanın səltənəti barədə şeytanların oxuduqlarına uydular. *Halbuki,* Süleyman kafir olmadı. Lakin şeytanlar**

---

1 "ən-Nisa" surəsi, 65.
2 "Muhəmməd" surəsi, 8-9.
3 "əl-Maidə" surəsi, 61.
4 "ət-Tovbə" surəsi, 65-66.
5 "ən-Nisa" surəsi, 140.

**sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular.** ***O iki mələk*****: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş,** ***onu*** **heç kəsə öyrətmirdilər. Onlar ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən və faydası olmayan şeyi öyrənirdilər. Onlar bilirdilər ki, bunu satın alan kimsələrin axirətdə heç bir payı yoxdur. Qarşılığında özlərini satdıqları şey necə də pisdir! Kaş,** ***bunu*** **biləydilər!"**[1]

**Səkkizincisi,** kafirləri dost tutmaq:

**"Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kəs** ***bilsin ki,*** **Allah ilə** ***onun*** **heç bir əlaqəsi yoxdur."**[2]

**"Sən** ***münafiqlərin*** **bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən. Nəfslərinin onlar üçün hazırladığı şey necə də pisdir!** ***Buna görə də,*** **Allah onlara qəzəblənmişdir və onlar əzab içində əbədi qalacaqlar."**[3]

**Doqquzuncusu,** Peyğəmbərin ﷺ yolundan çıxmaq:

**"Bu, Mənim düz yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Yoxsa,** ***o yollar*** **sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə** ***pis əməllərdən*** **çəkinəsiniz."**[4]

**"Kim İslamdan başqa bir din arayarsa,** ***bilsin ki, o din*** **ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."**[5]

---

1 "əl-Bəqərə" surəsi, 102.
2 "Ali-İmran" surəsi, 28.
3 "əl-Maidə" surəsi, 80.
4 "əl-Ənam" surəsi, 153.
5 "Ali-İmran" surəsi, 85.

**Onuncusu,** dindən üz çevirmək:

**"Rəbbinin ayələri yadına salındıqdan sonra onlardan üz döndərən kəsdən daha zalım kim ola bilər?! Şübhəsiz ki, Biz günahkarlardan intiqam alacağıq."[1]**

**"De: "Allaha və *Onun göndərdiyi* Rəsula itaət edin!" Əgər üz döndərsələr, *bilsinlər ki,* Allah, həqiqətən də, kafirləri sevməz."[2]**

## Muhəmməd peyğəmbərin ﷺ Allahın rəsulu olduğuna şəhadət gətirmək:

Müsəlman olmaq istəyən hər kəs: "Əşhədu ənnə Muhəmmədən rəsulullah" (Mən şəhadət verirəm ki, Muhəmməd Allahın rəsuludur!) şəhadətini də dili ilə tələffüz etməli, onu qəlbən qəbul etməli və onun tələblərini yerinə yetirməlidir.

"Muhəmmədun rəsulullah" şəhadətinin özündə ehtiva etdiyi məsələlər (tələbləri) aşağıdakılardır:

### 1 – Peyğəmbərə ﷺ iman gətirmək.

**"Elə isə, Allaha və Onun elçisinə – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz."[3]**

**"Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdarlıq edən *elçi* kimi göndərmişik. *Biz belə etdik* ki, siz Allaha və Onun elçisinə iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və səhər-axşam *Allahı* tərifləyəsiniz."[4]**

---

[1] "əs-Səcdə" surəsi, 22.
[2] "Ali-İmran" surəsi, 32.
[3] "əl-Əraf" surəsi, 158.
[4] "əl-Fəth" surəsi, 8-9.

“[Ey Muhəmməd!] **Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən** *bir peyğəmbər* **kimi göndərdik.”**[1]

## 2 – Peyğəmbərin ﷺ təbliğ etdiyini təsdiqləmək.

**“*Peyğəmbər* öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir.”**[2]

**“*Allahın* rəsulu sizə nə əmr edirsə, onu yerinə yetirin, nəyi də qadağan edirsə, ondan çəkinin.”**[3]

**“Sənə Zikri** (Quranı) **nazil etdik ki, insanlara, onlara nazil olan *hökmləri* izah edəsən.”**[4]

## 3 – Peyğəmbərə ﷺ mütləq şəkildə itaət etmək.

**“Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar.”**[5]

**“Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız.”**[6]

**“Biz hər bir elçini, – Allahın izni ilə, – məhz itaət edilsin deyə göndərdik.”**[7]

**“Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan ayrı bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir.”**[8]

---

1 “Səba” surəsi, 28.
2 “ən-Nəcm” surəsi, 3-4.
3 “əl-Həşr” surəsi, 7.
4 “ən-Nəhl” surəsi, 44.
5 “ən-Nisa” surəsi, 80.
6 “ən-Nur” surəsi, 54.
7 “ən-Nisa” surəsi, 64.
8 “ən-Nisa” surəsi, 115.

**“Qoy, onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar.”[1]**

**“Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcək: “Kaş, mən Peyğəmbərin yolunu tutub gedəydim!”[2]**

**“Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: “Kaş, biz Allaha ibadət edər, Onun rəsuluna da itaət edərdik!”[3]**

## 4 – Peyğəmbərin ﷺ yolu ilə getmək.

**“Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz.”[4]**

**“De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir.”[5]**

**“Bu, Mənim düz yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Yoxsa, *o yollar* sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə *pis əməllərdən* çəkinəsiniz.”[6]**

**“Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və *Onun* rəsuluna müraciət edin. Bu, *sizin üçün* daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.”[7]**

---

1 “ə-Nur” surəsi, 63.
2 “əl-Furqan” surəsi, 27.
3 “əl-Əhzab” surəsi, 66.
4 “əl-Əraf” surəsi, 158.
5 “Ali-İmran” surəsi, 31.
6 “əl-Ənam” surəsi, 153.
7 “ən-Nisa” surəsi, 59.

## 5 – Peyğəmbəri ﷺ sevmək.

**“De: “Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun rəsulundan və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkar qövmu doğru yola yönəltməz.”**[1]

Hədisdə Peyğəmbər ﷺ demişdir: **“Canım Əlində olan Allaha and olsun ki, sizdən biriniz məni valideynindən və övladından çox istəməyincə, iman gətirmiş olmaz.”**[2]

Qeyd etmək lazımdır ki, bu sevgi ifrat dərəcədə olmamalıdır, yəni Peyğəmbəri ﷺ sevən mömin onu Allaha tay tutmamalı, Allaha məxsus olan sifətləri ona aid etməməli və ibadətə aid əməlləri ona yönəltməməlidir. Bu xüsusda Quranda belə buyurulur: **“İnsanlardan elələri var ki, Allahdan qeyrilərini** *Ona* **tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür.”**[3]

Hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi siz də məni şişirtməyin! Mən, sadəcə, Allahın quluyam. Elə isə,** ***mənə*****: “Allahın qulu və rəsulu!”– deyin.”**[4]

Rəvayət edilir ki, bir nəfər: “Ey Muhəmməd, ey seyyidimiz və seyyidimizin oğlu, xeyirlimiz və xeyirlimizin oğlu!”–

---

1 “ət-Tovbə” surəsi, 24.
2 “Səhih əl-Buxari”, 14.
3 “əl-Bəqərə” surəsi, 165.
4 “Səhih əl-Buxari”, 3445.

dedi. Onda Peyğəmbər ﷺ belə buyurdu: **"Ey insanlar, Allahdan qorxun! Şeytan sizi öz yoluna çəkməsin. Mən Abdullahın oğlu Muhəmmədəm, Allahın qulu və rəsuluyam. Vallahi, mən istəmirəm ki, siz məni Allahın məni yüksəltdiyi məqamdan daha yüksək tutasınız."[1]**

Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ey insanlar, dində ifrata varmaqdan çəkinin! Həqiqətən də, sizdən əvvəlkiləri məhz dində ifrata varmaqları məhv etmişdir"[2]**

## 6 – Həddi aşmadan Peyğəmbərin ﷺ hörmətini saxlamaq.

**"*Biz belə etdik* ki, siz Allaha və Onun elçisinə iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və səhər-axşam *Allahı* tərifləyəsiniz."[3]**

**"Ey iman gətirənlər! *Heç bir şeydə* Allahı və Onun rəsulunu qabaqlamayın. Allahdan qorxun! Həqiqətən, Allah Eşidəndir, Biləndir."[4]**

**"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər."[5]**

**"Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın."[6]**

---

1 "Musnəd İmam Əhməd", 3/153; "Silsilə əl-Əhadis əs-Səhihə", 1097.
2 "Sunən İbn Macə", 3029; "Silsilə əl-Əhadis əs-Səhihə", 1283.
3 "əl-Fəth" surəsi, 9.
4 "əl-Hucurat" surəsi, 1.
5 "əl-Hucurat" surəsi, 2.
6 "ən-Nur" surəsi, 63.

### 7 – Peyğəmbər ﷺ sağ ikən onun özünə, vəfatından sonra isə onun dininə, şəriətinə və sünnəsinə yardım etmək.

**“Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər, məhz onlar nicat tapanlardır.”[1]**

**“Bir zaman Allah peyğəmbərlərdən: “Sizə Kitab və hikmət verdikdən sonra, özünüzdəkini təsdiqləyən bir elçi gəldikdə ona mütləq iman gətirib yardım edəcəksiniz”– deyə əhd almış və *onlara*: “Təsdiq etdinizmi, *bu* əhdimi öhdənizə götürdünüzmü?”– demişdi. Onlar: “Təsdiq etdik!”– demişdilər. *Allah da belə* buyurmuşdu: “Elə isə şahid olun, Mən də sizinlə bərabər şahid olanlardanam.”[2]**

### 8 – Peyğəmbərə ﷺ salavat demək.

**“Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib, kamil ədəb-ərkanla *onu* salamlayın.”[3]**

Hədisdə Peyğəmbər ﷺ belə demişdir:

**“Kim mənə bir salavat oxusa, Allah ona bunun sayəsində onunu yetirər.”[4]**

**“Paxıl o kimsədir ki, mənim adım çəkildikdə, mənə salavat demir.”[5]**

---

[1] “əl-Əraf” surəsi, 157.
[2] “Ali-İmran” surəsi, 81.
[3] “əl-Əhzab” surəsi, 56.
[4] “Səhih əl-Buxari”, 849.
[5] “Musnəd İmam Əhmad”, 1/201; “Səhih əl-Cami”, 2878.

**“Məclisdə oturarkən Rəbbini zikr etməyən və Peyğəmbərinə salavat gətirməyən camaat Qiyamət günü ziyana uğrayar. Allah istəsə, onlara əzab verər, istəsə, onları bağışlayar.”**[1]

**“Kim mənə bir salavat oxuyarsa, Allah ona *bunun sayəsində* onunu yetirər və onun on günahından keçər.”**[2]

**“Kim mənə bir salavat oxuyarsa, ona *bunun sayəsində* on savab yazılar.”**[3]

---

1 “Sunən Əbu Davud”, 4856; “Səhih əl-Cami”, 6043.

2 “Musnəd İmam Əhməd”, 3/102; “Silsilə əl-Əhadis əs-Səhihə”, 829.

3 “Səhih İbn Hibban”, 3/102; “Silsilə əl-Əhadis əs-Səhihə”, 3359.

# NAMAZ

Əvvəlki fəsildə qeyd etdik ki, İslam alimləri, şəhadət kəlməsinin mənasını anlayaraq və ona etiqad edərək onu tələffüz edən hər kəsin müsəlman olması xüsusunda yekdil rəydədirlər. Şəhadət kəlməsini təsdiqləyib, müsəlman olduqdan sonra, Allahın və Onun rəsulunun ﷺ buyurduğu ikinci əsası qəbul etməyin vacibliyi xüsusunda da İslam alimləri yekdil rəydədirlər. Yəni, sadəcə şəhadət gətirib müsəlman olmaq kifayət deyil. Belə ki, şərh etdiyimiz hədisdə Peyğəmbər ﷺ: **"Allah onlara gündəlik olaraq beş vaxt namaz qılmağı vacib buyurmuşdur"**[1]– deyir. Bu da o deməkdir ki, şəhadət gətirmiş hər bir müsəlmana namaz qılmaq vacibdir:

**"Allah həm əvvəl *nazil etdiyi kitablarda*, həm də bu *Kitabda* sizi müsəlman adlandırdı. Elə isə, namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın."**[2]

**"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!"**[3]

**"Namaz qıl! Həqiqətən, namaz *adamı* çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə *ibadətlərin* ən əzəmətlisidir."**[4]

**"Əgər tövbə etsələr, namaz qılsalar və zəkat versələr onlar sizin din qardaşlarınızdır."**[5]

---

[1] Hədisi tam olaraq kitabın müqəddiməsində (səh.6) qeyd etmişik.

[2] "əl-Həcc" surəsi, 78.

[3] "əl-Bəyyinə" surəsi, 5.

[4] "əl-Ənkəbut" surəsi, 45.

[5] "ət-Tovbə" surəsi, 11.

Namaz, xüsusi kəlmələr və hərəkətlərlə yerinə yetirilən, təkbirlə başlayıb təslimlə qurtaran ibadətə deyilir.[1]

Uca Allah namaz qılmağı təkcə bu ümmətə deyil, əvvəlki ümmətlərə də vacib buyurmuşdur. Yəni, peyğəmbərlərin hamısı və onların davamçıları namaz qılmışlar. Gəlin, bu xüsusda Quranda zikr edilən ayələrə nəzər salaq:

**"Biz ona[2] İshaqı, ardından da Yəqubu bəxş etdik və hamısını əməlisaleh insanlar etdik. Biz Öz hökmümüzlə onları doğru yolu göstərən rəhbərlər etmişdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər."[3]**

Bir zaman İbrahim عليه السلام dua edib demişdir: **"Ey Rəbbimiz! Mən nəslimdən bəzisini** (Həcəri və İsmaili عليه السلام) **Sənin Beytulharamının** (Kəbənin) **yaxınlığında, heç bir bitki olmayan bir vadidə sakin etdim. Ey Rəbbimiz, onlar namaz qılsınlar deyə** ***belə etdim."***[4]

**"Kitabda İsmaili xatırla! Həqiqətən, o, öz vədinə sadiq idi. O, bir elçi və peyğəmbər idi. O, öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edərdi. O, Rəbbinin rizasını qazanmışdı."[5]**

Bir zaman Şueyb عليه السلام öz qövmünə: **"Allaha ibadət edin!"[6]**– demiş, onlar da ona belə cavab vermişlər: **"Ey Şueyb, atalarımızın ibadət etdikləri məbudlardan, yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir?!"[7]**

---

[1] "əş-Şərh əl-Mumti alə Zad əl-Mustəqnə", 2/5.
[2] Yəni, İbrahim peyğəmbərə عليه السلام.
[3] "əl-Ənbiya" surəsi, 72-73.
[4] "İbrahim" surəsi, 37.
[5] "Məryəm" surəsi, 54-55.
[6] "Hud" surəsi, 84.
[7] "Hud" surəsi, 87.

Yunus peyğəmbəri ﷺ balıq udduqda, o, Allaha yalvarıb: **"Səndən başqa *ibadətə layiq* məbud yoxdur! Sən pak və müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!"[1]**– demiş, Allah da onun duasını qəbul etmiş, onu bu sıxıntıdan xilas etmiş və belə buyurmuşdur: **"Əgər o, Allaha tərif deyənlərdən olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı".[2]** İbn Abbas ﷺ, Səid ibn Cubeyr ﷺ, Qətadə ﷺ və başqaları bu ayəni izah edib demişlər: "Əgər o, namaz qılanlardan olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı."[3]

Musa peyğəmbər ﷺ uca Allahla bilavasitə danışmış və Rəbbi ona belə buyurmuşdur: **"Ey Musa, həqiqətən, Mən sənin Rəbbinəm. Başmaqlarını çıxart. Çünki sən müqəddəs Tuva vadisindəsən! Mən səni seçmişəm. *Sənə* vəhy olunanı dinlə! Həqiqətən, Mən Allaham! Məndən başqa *ibadətə layiq* məbud yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!"[4]**

**"Biz Musaya və onun qardaşı *Haruna*: "Camaatınız üçün Misirdə evlər hazırlayın, evlərinizi namazgah edin və namaz qılın! Möminləri müjdələ!"– *deyə* vəhy etdik."[5]**

**"Davud Bizim onu sınağa çəkdiyimizi yəqin etdikdə, Rəbbindən özünün bağışlanmasını dilədi və səcdəyə qapanıb tövbə etdi".[6]**

---

[1] "əl-Ənbiya" surəsi, 87.
[2] "əs-Saffat" surəsi, 143-144.
[3] "Təfsir ət-Təbəri", 21/109.
[4] "Ta ha" surəsi, 11-14.
[5] "Yunus" surəsi, 87.
[6] "Sad" surəsi, 24.

**“Zəkəriyyə mehrabda durub namaz qılarkən, mələklər ona belə xitab etdilər...”**[1]

İsa ﷺ beşikdə ikən dil açıb demişdir: **“Həqiqətən də mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılmağı və zəkat verməyi əmr etdi.”**[2]

**“Onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə *gəmidə* daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin nəslindən seçib haqq yola yönəltdiyimiz kimsələrdəndir. Onlar özlərinə Mərhəmətli *Allahın* ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayan kimsələrdir. Onların arxasınca namazı buraxıb, şəhvətə uyan bir nəsil gəldi. Onlar ziyana uğrayacaqlar.”**[3]

Muhəmməd peyğəmbərə ﷺ də belə buyurulmuşdur: **“Ailənə namaz qılmağı əmr et, özün də onu səbirlə yerinə yetir.”**[4]

Hədisdə xəbər verilir ki, Cəbrail ﷺ iki gün ardıcıl Kəbənin yanında Peyğəmbərə ﷺ beş vaxtda namaz qıldırmışdır. O, birinci gün namazları əvvəl vaxtlarında, ikinci gün isə axır vaxtlarında qıldırmış, sonra da belə demişdir: **“Ey Muhəmməd, bu, namazın vaxtlarıdır. Səndən əvvəlki peyğəmbərlər də namazlarını bu vaxtlarda qılmışlar.”**[5]

---

[1] “Ali-İmran” surəsi, 39.

[2] “Məryəm” surəsi, 30-31.

[3] “Məryəm” surəsi, 58-59.

[4] “Taha” surəsi, 132.

[5] “Sunən Əbu Davud”, 393; “Sunən ət-Tirmizi”, 149; “Musnəd İmam Əhməd”, 3322; “Səhih əl-Cami”, 1402.

Namaz qılmaq Peyğəmbərimizin ﷺ həyatda ən çox sevdiyi əməl olmuşdur. O, hər bir namazı öz vaxtında, sevə-sevə yerinə yetirərdi. Hətta bəzən gecə namazını qıldıqda o qədər ayaq üstə durardı ki, ayaqları şişərdi. Ona: “Nə üçün özünü bu ağır yüklə yükləyirsən?! Axı, Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır”– deyildikdə, o, belə cavab verərdi: **“Şükür edən bir qul olmayımmı?!”**[1]

Peyğəmbər ﷺ ölüm yatağına düşdükdə belə namazı tərk etməmişdir. Rəvayət edilir ki, o, ölüm yatağında ikən hər dəfə bayılıb, sonra ayıldıqda: **“Namazın vaxtı yetişdimi?”**– deyə soruşarmış. Halı azacıq yaxşılaşdıqda isə səhabələrindən bəzisini çağırıb onlara söykənərək, ayaqlarını da yerlə sürüyərək məscidə gedib, namazı oturulu halda camaatla birlikdə qılarmış.”[2] Nəhayət, ölümqabağı təkrar-təkrar: **“Namaz qılın, namaz qılın!”**– deyə ümmətinə vəsiyyət etmişdir.[3]

Peyğəmbərin ﷺ bu əməli, üstəlik, son vəsiyyəti namazın İslamda necə yüksək məqamda olduğuna dəlalət edir.

Hər bir müsəlman kişiyə və müsəlman qadına gündəlik olaraq **beş vaxt namaz** qılmaq vacib buyurulmuşdur. Bunlar:

1. Fəcr (2 rükət);
2. Zöhr (4 rükət);
3. Əsr (4 rükət);
4. Məğrib (3 rükət);
5. İşa (4 rükət).

---

[1] “Səhih əl-Buxari”, 1130; “Səhih Muslim”, 2819.

[2] “Sunən ən-Nəsai”, 7119; “Şəmail ən-Nəbi”, 396.

[3] “Sunən Əbu Davud”, 5156; “Sunən ən-Nəsai əl-Kubra”, 7060; “Sunən İbn Macə”, 2697; “Musnəd İmam Əhməd”, 26483; “Səhih əl-Cami”, 4616; “İrva əl-Ğəlil”, 2178.

Beş vaxt namaz qılmağın vacib buyurulmasına dair aşağıdakı ayələri dəlil göstərmək olar:

**"Namazları** ***lazımi qaydada*** **qılın. Çünki namaz möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir."**[1]

**"Namazları,** ***xüsisilə*** **orta namazı qoruyun** (əsr namazını vaxtında qılın) **və Allah qarşısında mütiliklə durun."**[2]

**"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək** [bəlli vaxtlarda] **namaz qıl və sübh çağı Quran oxu** (fəcr namazını da qıl)**! Çünki, sübh çağı oxunan Quranın şahidləri olur."**[3]

**"Gündüzün iki başında –** ***əvvəlində və axırında*** **və gecənin bəzi saatlarında doğru-düzgün namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır."**[4]

Peyğəmbər ﷺ demişdir: **"Zöhr namazının vaxtı, Günəş** ***zenitdən***[5] **meyl etdiyi vaxtdan adamın kölgəsi öz boyu uzunluğunda oluncayadək,** ***yəni*** **əsr vaxtı yetişənədək, əsrin vaxtı** [adamın kölgəsi öz boyu uzunluğunda olduğu vaxtdan] **günəş saralanadək, məğribin vaxtı** [Günəş batandan] **şəfəq gözdən itənədək, işanın vaxtı** [şəfəq itəndən] **gecənin mötədil yarısınadək**[6] **və sübhün vaxtı dan yeri söküldüyü vaxtdan günəş**

---

[1] "ən-Nisa" surəsi, 103.

[2] "əl-Bəqərə" surəsi, 238.

[3] "əl-İsra" surəsi, 78

[4] "Hud" surəsi, 114.

[5] Zenit – göyün, baş üstündəki ən uca xəyali nöqtəsi.

[6] Burada "mötədil" deyidikdə daha düzgün, daha münasib olduğu nəzərdə tutulur. Yəni, işa namazını qılmaq üçün gecənin birinci yarısı, ikinci yarısından daha münasibdir.

**doğanadək davam edir. Günəş doğduğu vaxt isə özünü namaz qılmaqdan saxla. Çünki günəş şeytanın iki buynuzu arasından doğur.[1]"[2]**

Əziz oxucu! Məlumun olsun ki, namaz qılmamaq böyük günahdır. Bunun nə dərəcədə böyük günah olduğunu bilən kimsə namazı tərk etməz. Bu xüsusda bir çox hədislər rəvayət edilmişdir. Onlardan bəzisi bunlardır:

**"Şübhəsiz ki, insanla şirk və küfr[3] arasında namazı tərk etmək durur."[4]**

**"Bizimlə onların arasındakı əhd namazdır. Kim onu tərk etsə, küfr etmiş olar."[5]**

**"Adəm övladı səcdə ayəsini[6] oxuyub səcdəyə qapandıqda, şeytan kənara çəkilib ağlayır və deyir: "Vay mənim halıma! Adəm övladına səcdə etmək əmr olundu, səcdə edib Cənnəti**

---

[1] Bəzi alimlər bu hədisdəki **"şeytanın iki buynuzu"** sözünü, onun ümməti və tərəfdarları mənasına yozmuşlar. Bəziləri də onun başının yan tərəfləri qəsd edildiyini söyləmişlər. Elə hədisin zahiri də buna dəlalət edir. Yəni, bu vaxt şeytan başını günəşə yaxınlaşdırır ki, həmin vaxt günəşə səcdə edən kafirlər əslində ona səcdə etmiş olsunlar. Və bu vaxt şeytana və onun tərəfdarlarına namaz qılanın namazını çaşdırma imkanı da verilir. Elə buna görə də həmin vaxt namaz qılmaq məkruh sayılır.

[2] "Səhih Muslim", 612.

[3] Bilərəkdən namazın vacibliyini inkar edib onu tərk edən kimsə, müsəlmanların yekdil rəyinə əsasən kafir sayılır.

[4] "Səhih Muslim", 82.

[5] "Sunən ət-Tirmizi", 2621; "Musnəd İmam Əhməd", 22937; "Səhih ət-Tərğib vət-Tərhib", 564.

[6] Qurandakı səcdə ayələri bunlardır: "əl-Əraf", 206; "ər-Rəd", 15; "ən-Nəhl", 50; "əl-İsra", 109; "Məryəm", 58; "əl-Həcc", 18; "əl-Həcc", 77; "əl-Furqan", 60; "ən-Nəml", 26; "əs-Səcdə", 15; "Sad", 24; "Fussilət", 38; "ən-Nəcm", 62; "əl-İnşiqaq", 21; "əl-Ələq", 19.

**qazandı. Mənə isə səcdə etmək əmr olundu, boyun qaçırıb Cəhənnəm odunu qazandım."**[1]

**"Hər kim namazını vaxtlı-vaxtında qılsa, Qiyamət günü bu namaz onun üçün bir nur, onun lehinə bir dəlil və bir də onun nicat tapması üçün bir səbəb olacaq. Namazı qılmayan kimsənin isə nə bir nuru, nə bir dəlili, nə də ki nicat tapmaq üçün bir qurtuluş yolu olacaqdır. Beləsi Qiyamət günü Qarunla, Fironla, Hamanla və Ubey ibn Xələf ilə bir yerdə həşr olunacaq."**[2]

**"Kim bizim qıldığımız namazı qılır, üzünü qibləmizə çevirir və kəsdiyimiz qurbandan yeyirsə, o, Allahın və Onun rəsulunun mühafizəsi altında olan müsəlmandır."**[3]

**"İnsanın Qiyamət günü ilk soruşulacağı əməl namaz olacaq. Əgər namaz qılıbsa, digər əməllərinə də baxılacaq. Əks halda, ziyana uğrayacaq."**[4]

**"Namazı tərk edənin İslamdan nəsibi olmaz."**[5]

Kim namazı boş bir şey hesab edir, "namaz qılmaq lazım deyil, əsas qəlbin təmiz olsun"– deyirsə, o, Allahın əmrinə qarşı çıxır və peyğəmbərlərin عليهم السلام hamısına müxalif olur. O: "Mən müsəlmanam"– desə və Quranda buyurulanlara iman gətirdiyini iddia etsə də, dedikləri ilə əməlləri düz gəlmir, çünki Quranda buyurulan vacib əməli yerinə yetirmir. Halbuki,

---

[1] "Səhih Muslim", 81.

[2] "Musnəd İmam Əhməd", 6576.

[3] "Səhih əl-Buxari", 391.

[4] "Sunən ət-Tirmizi", 413; "Səhih ət-Tərğib vət-Tərhib", 377; "Silsilə əl-Əhadis əs-Səhihə", 1358.

[5] Bu hədisi Misvar ibn Məxrəmə رضي الله عنه Ömər ibn əl-Xattabdan رضي الله عنه rəvayət etmişdir: "Muvatta Malik", 51; "İrva əl-Ğəlil", 209.

**– Namaz qılmaq,** Allahın Öz qullarına əmr etdiyi ən vacib əməldir. Bu xüsusda uca Allah belə buyurur:

﴿إِنَّ ٱلصَّلَوٰةَ كَانَتۡ عَلَى ٱلۡمُؤۡمِنِينَ كِتَٰبٗا مَّوۡقُوتٗا﴾

**“Həqiqətən, namaz möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir.”**[1]

**– Namaz** Allahın ən çox sevdiyi əməldir. Rəvayət edilir ki, səhabə Peyğəmbərdən ﷺ: “Allahın ən çox sevdiyi əməl hansıdır?”– deyə soruşduqda, Peyğəmbər ﷺ belə cavab vermişdir: **“Namazı öz vaxtında qılmaq.”**[2]

**– Namaz** Allahla bəndə arasında rabitə yaradan amildir. Buna dəlil, hər bir müsəlmanın gündəlik qıldığı namazlarda oxuduğu “əl-Fatihə” surəsidir. “əl-Fatihə” Quranın ən əzəmətli surəsidir.[3] Hər bir müsəlman bu surəni oxuduqda Allahla danışır və Allah onun oxuduğu hər bir ayəyə cavab verir.

Rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: “Uca Allah buyurur: **“Mən “əs-Səlatı”[4] Özümlə qulum arasında iki qismə böldüm və qulum dilədiyini alacaq.” O: “Həmd, aləmlərin Rəbbi Allaha məxsudur!”– dedikdə, Allah: “Qulum Məni həmd-səna ilə təqdis etdi!”– deyir. O: “Mərhəmətli və Rəhmliyə”– dedikdə, Allah: “Qulum Məni təriflədi!”– deyir.**

---

[1] “ən-Nisa” surəsi, 103.

[2] “Səhih əl-Buxari”, 5970; “Səhih Muslim”, 139.

[3] Peyğəmbərﷺ demişdir: **“əl-Fatihə” surəsi yalnız mənə nazil edilmiş təkrarlanan yeddi ayə və əzəmətli Qurandır”.** (“Səhih Buxari”, 4474).

[4] “əs-Səlat” ərəbcədən tərcümədə namaz deməkdir və bu, “əl-Fatihə” surəsinin adlarından biridir. “əl-Fatihə”siz qılınan namaz qəbul olunmadığına görə, bu surə “əs-Səlat” adlandırılıb. Necə ki, Peyğəmbər ﷺ buyurur: **“Həcc Ərəfatdır”.** (“Sunən Əbu Davud”, 1949; “Səhih əl-Cami”, 3172). Yəni, zilhiccə ayının 9-u Ərəfatda olmayan kimsənin həcci qəbul deyildir.

**O: "Din gününün Hökmdarına!"– dedikdə, Allah: "Qulum Məni mədh etdi!" deyir. O: "Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik!"– dedikdə, Allah buyurur: "Bu surə, Mənimlə qulumun arasında iki hissəyə bölünür və o, dilədiyini alacaq!" O: "Bizi düz yola – nemət bəxş etdiyin şəxslərin yoluna yönəlt, qəzəbə uğramışların və azmışların** ***yoluna*** **yox!"– dedikdə, Allah buyurur: "Bu, quluma məxsusdur və o, dilədiyini alacaq!"**[1]

**– "Namaz İslam dininin dirəyidir"**[2] deyildikdə, gündəlik beş vaxt qılınan namazlar qəsd edilir. Həqiqətən, namaz dinin dirəyidir, beş dayağından biridır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **"İslam beş dayaq üzərində qurulmuşdur: Allahdan başqa ibadətə haqqı olan məbudun olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və ramazan orucunu tutmaq."**[3]

**– Namaz** günahları silib aparan amildir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Bir deyin görüm, əgər sizdən birinizin qapısının önündən çay axsaydı, o da, hər gün bu çayda beş dəfə yuyunsaydı, onun bədənində olan çirkdən bir şey qalardımı?"** Səhabələr: "Onun bədənindəki çirkdən heç nə qalmazdı"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ demişdir: **"Beş vaxt qılınan namazların məsəli də buna bənzəyir. Belə ki, Allah bununla günahları silir!"**[4]

---

[1] "Səhih Muslim", 878.

[2] "Sunən ət-Tirmizi", 2616; "Sunən İbn Macə", 3973; "Musnəd İmam Əhməd", 22016; "İrva əl-Ğəlil", 413.

[3] "Səhih əl-Buxari", 528.

[4] "Səhih əl-Buxari", 8; "Səhih Muslim", 16.

**– Namaz** müsəlmanı Cənnətə daxil edən amildir. Rəvayət edilir ki, səhabələrdən biri Peyğəmbərdən ﷺ: "Əgər mən vacib buyurulmuş namazları[1] qılsam, ramazan ayını oruc tutsam,

---

[1] Bundan elə başa düşülə bilər ki, sanki müstəhəbləri, yəni sünnələri və nafilə ibadətlərini yerinə yetirməsək də olar, yəni onlarsız da Cənnətə girmək mümkündür. Bəli, bu hədisə əsasən demək olar ki, yalnız vacibləri yerinə yetirməklə Cənnətə daxil olmaq olar, lakin qeyd etmək lazımdır ki, Cənnətin yüz mərtəbəsi var və ən uca mərtəbəsi Firdovsdur. Peyğəmbər ﷺ hədislərin birində buyurur ki: **"Allahdan *nə isə* dilədiyiniz zaman Firdovs cənnətini diləyin! Çünki Firdovs, Cənnətin tam ortası və ən yüksək mərtəbəsidir".** ("Səhih əl-Buxari", 2790). Qeyd edək ki, möminlər dərəcə baxımdan bir-birlərindən fərqlənirlər. Kimisi sadəcə öhdəsinə düşən vacibləri yerinə yetirməklə kifayətlənir, kimisi də hər bir sünnəni yerinə yetirməklə öndə gedənlərdən olmağa çalışır. Necə ki, "Fatir" surəsinin 32-ci ayəsində buyurulur: **"Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur."** Ayədən aydın başa düşülür ki, möminlərdən kimisi günah işlər görməklə özünə zülm edir, kimisi sadəcə vacibləri yerinə yetirib, haramları tərk etməklə kifayətlənir, kimisi də vacibləri yerinə yetirməkdən əlavə nafilə ibadətlərini də yerinə yetirməklə, habelə, haramları tərk etməkdən əlavə məkruhları da tərk etməklə öndə gedənlərdən olmağa çalışır. Düzdür, yalnız vacibləri yerinə yetirmək və haramları tərk etmək Cənnətə daxil olmaq üçün səbəbdir, lakin nafilələri yerinə yetirmək, vacibləri yerinə yetirdikdə buraxılan nöqsanları tamamlayır. Səhih hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: **"İnsanın Qiyamət günü ilk soruşulacağı əməl namaz olacaq. Əgər bu sorğu-sualdan keçsə, uğur qazanar və nicat tapar, əks halda isə bədbəxt olar və ziyana uğrayar. Və əgər namazında hər hansı bir naqislik olarsa, Rəbb təbarəkə və təalə mələklərə buyurar: "Baxın görün, qulumun nafilə ibadətləri olubmu? Nəhayət, onun nafilə ibadətləri sayəsində, vaciblərində olan naqislik tamamlanar. Sonra digər vacib buyurulan əmllərinin də naqisliyi beləcə tamamlanar"** ("Sunən Əbu Davud", 864; "Səhih əl-Cami", 2571). Yəni, əgər o adamın namazında, zəkatında, orucunda, həccində və digər vacib buyurulan əməllərində naqisliyi olarsa, nafilələr bu nöqsanları tamamlayar.

halalı halal, haramı da haram qəbul etsəm və buna heç nə artırmasam, Cənnətə daxil olarammı?"– deyə soruşduqda, Peyğəmbər ﷺ ona: **"Bəli!"**– deyə cavab vermişdir."[1]

Digər hədisdə xəbər verilir ki, bir bədəvi Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, mənə elə bir əməl öyrət ki, onu yerinə yetirəcəyim təqdirdə Cənnətə daxil olum"– dedi. Peyğəmbər ﷺ buyurdu: **"Allaha ibadət et və Ona heç kəsi şərik qoşma, vacib buyurulmuş namazları qıl, vacib buyurulmuş zəkatı ver və Ramazan ayını oruc tut!"** Bədəvi dedi: "Canım əlində olan *Allaha* and olsun ki, mən buna heç nə artırmayacağam və bundan heç nə əskiltməyəcəyəm." O gedəndən sonra Peyğəmbər ﷺ dedi: **"Əgər doğru deyirsə, Cənnətə daxil olacaq."**[2]

Yenə bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Allahdan qorxun, beş vaxt namazlarınızı qılın, ramazan ayının orucunu tutun, malınızın zəkatını verin və müsəlman rəhbərinizə itaət edin, beləliklə də, Rəbbinizin Cənnətinə daxil olarsınız."**[3]

**– Namaz** mömini Cəhənnəmdən qoruyan amildir. Bu xüsusda Quranda xəbər verilir ki, günahkarlardan: **"Sizi Səqərə** (Cəhənnəmə) **salan nədir?"– deyə soruşulduqda, onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik."**[4]

**– "Namaz nurdur".**[5] Bu hədisdə **"namaz"** deyildikdə, həm vacib, həm də nafilə namazlar qəsd edilir. Namaz qılan mömінin nuru həm bu dünyaya, həm də Axirətə aiddir. Yəni,

---

[1] "Səhih Muslim", 15.

[2] "Səhih əl-Buxari", 1891.

[3] "Sunən ət-Tirmizi", 2/516; "Silsilə əl-Əhadis əs-Səhihə", 867.

[4] "əl-Muddəssir" surəsi, 41-43.

[5] "Səhih Muslim", 223.

namaz möminin qəlbinə nur saçır və elə ki, qəlbi nurlandı, bu nur onun üzündə də özünü büruzə verir. Üstəlik, Qiyamət günü möminin yoluna nur saçacaq. Bu xüsusda, Quranda belə buyurulur: **“O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən.”**[1]

Digər hədisdə Peyğəmbər ﷺ demişdir: **“Kim namazını vaxtlı-vaxtında qılsa, Qiyamət günü bu namaz onun üçün bir nur, onun lehinə bir dəlil və bir də onun nicat tapması üçün bir səbəb olacaq. Namazı qılmayan kimsənin isə nə bir nuru, nə bir dəlili, nə də ki, nicat tapmaq üçün bir qurtuluş yolu olacaqdır. Beləsi Qiyamət günü Qarunla, Fironla, Hamanla və Ubey ibn Xələf ilə bir yerdə həşr olunacaq.”**[2]

**– Namaz** mömin adama sədəqə savabı qazandırır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Namaz qılmağa getdikdə atdığın hər bir addımın sədəqədir.”**[3]

**– Namaz** mömin adamın gündəlik əhval-ruhiyyəsini yaxşılaşdıran əsas amillərdən biridir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **“Sizdən biriniz yatdığı zaman şeytan onun boynunun ardına üç düyün vurur və hər düyün vurduqca: “Gecə uzundur, yat!”– deyir. Əgər o kimsə oyanıb Allahı zikr etsə, düyünlərdən biri açılar, dəstəmaz alsa, ikincisi açılar, namaz qılsa, üçüncüsü açılar və beləliklə də, o adam səhərini gümrah və əhvali-ruhiyyəsi yaxşı olduğu halda açar. Əks halda isə, onun həmin gün əhvali-ruhiyyəsi çox pis olar.”**[4]

---

[1] “əl-Hədid” surəsi, 12.

[2] “Musnəd İmam Əhməd”, 6576.

[3] “Səhih əl-Buxari”, 2989; “Səhih Muslim”, 1009.

[4] “Səhih əl-Buxari”, 1142.

**– Namaz** möminin sıxıntısını aradan qaldıran amildir. Bu xüsusda Quranda belə buyurulur: **"Səbir etmək və namaz qılmaqla *Allahdan* kömək diləyin! Həqiqətən, bu, *Allaha* müti olanlardan başqa *hamıya* ağır gəlir"**[1]

Rəvayət edilir ki, Peyğəmbərə ﷺ bir sıxıntı üz verdikdə namaz qılardı.[2]

**– "Namaz *adamı* çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə *ibadətlərin* ən əzəmətlisidir."**[3]

**– Namaz** qılan mömin insanı Allah qoruyur: Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **"Kim bizim qıldığımız namazı qılır, üzünü qibləmizə çevirir və kəsdiyimiz qurbandan yeyirsə, o, Allahın və Onun rəsulunun mühafizəsi altında olan müsəlmandır."**[4]

**– Namaz** mömin adamın Allah yanında dərəcəsini yüksəldir və xətalarını silir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Çalış Allaha çoxlu səcdə edəsən. Çünki Allah üçün etdiyin hər bir səcdənin əvəzində Allah səni bir dərəcə yüksəldər və sənin bir xətanı silər."**[5]

**– Namaz** insanı səbirli olmağa, özündən tez çıxmamağa kömək edir. Bu xüsusda Quranda belə buyurulur: **"Həqiqətən, insan kəmhövsələ yaradılmışdır. Ona bir pislik toxunduqda özündən çıxır, bir xeyir nəsib olduqda isə xəsislik edir. Namaz qılanlar istisnadır. O kəslər ki, namazlarını həmişə qılırlar."**[6]

---

1 "əl-Bəqərə" surəsi, 45.

2 "Sunən Əbu Davud", 1319; "Səhih Əbu Davud", 1192.

3 "əl-Ənkəbut" surəsi, 45.

4 "Səhih əl-Buxari", 391.

5 "Səhih Muslim", 488.

6 "əl-Məaric" surəsi, 19-23.

**– Namaz** qılmağa gedən adamı Cənnətdə Allahın verdiyi ziyafət gözləyir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Kim səhər və ya axşamüstü məscidə gedərsə, hər gedişində Allah onun üçün Cənnətdə bir ziyafət hazırlayar."**[1]

**– Namazı** məsciddə qılan, sonra **"namaz qıldığı yerdən ayrılmadan, heç kəsə əziyyət vermədən və dəstəmazını pozmadan o biri namazı gözləyən adam üçün mələklər belə dua edərlər: "Ey Allah, ona rəhm et! Ey Allah, onu bağışla! Ey Allah, onun tövbəsini qəbul et!"**[2]

**– "Namaz qıldıqdan sonra növbəti namazı gözləmək, keşiyində[3] durulmağa layiq işlərdir."**[4]

– Namaz mömini Rəbbinə yaxınlaşdıran amildir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Qulun Rəbbinə ən yaxın olduğu hal səcdəyə qapandığı halıdır."**[5]

**– Namazlarını** doğru-düzgün qılan mömin adam Allaha dost olur və Allah onun dualarını qəbul edir. Qüdsi hədisdə uca Allah buyurur: **"Kim Mənim dostumla[6] düşmənçilik edərsə, Mən ona hərb elan edərəm. Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib**

---

[1] "Səhih Muslim", 669.

[2] "Səhih əl-Buxari", 2119; "Səhih Muslim", 649.

[3] Hədisdə "keşiyində" deyildikdə, üş şeydən biri qəsd edilir:

– ya həqiqətən də, sərhədin keşiyində durmaq qəsd edilir. Yəni sərhədin keşiyində duran adam düşməni gözətlədiyi kimi, abid adam da Allah üçün etdiyi ibadətləri qoruyur;

– ya Allah üçün olan xeyirxah işlərin keşiyində durmaq qəsd edilir;

– ya da nəfslə mübarizə aparmaq nəzərdə tutulur.

[4] "Səhih Muslim", 251.

[5] "Səhih Muslim", 482.

[6] **"Allah möminlərin dostudur".** ("Ali-İmran" surəsi, 68).

**buyurduğum əməllərdir. Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Onu sevdiyim təqdirdə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram.[1] Məndən nə diləsə, ona dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm."[2]**

**– Namazlarını** doğru-düzgün qılan mömin adam Peyğəmbərin ﷺ sevdiyi qardaşı sayılır. Rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ qəbiristanlığa gəlib dedi: **"Salam olsun sizə, ey bu diyarın mömin sakinləri! Allah istəsə, biz də sizə qovuşacağıq. Qardaşlarımızı görməyimizə ümid edirəm!"** *Səhabələr* soruşdular: "Biz sənin qardaşların deyilikmi, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: **"Siz mənim səhabələrimsiniz. Qardaşlarımız isə hələ *dünyaya* gəlməmiş kimsələrdir."[3]** *Səhabələr* soruşdular: "Hələ *dünyaya* gəlməmiş kimsələrin sənin ümmətindən olduğunu necə tanıyacaqsan, ya Rəsulullah?" O dedi: **"Bir deyin görək, əgər bir adamın alnında və ayaqlarında ağ ləkə olan atları olsa və bu atlar, rənginə başqa rəng qarışmamış qapqara atların arasında olarsa, o adam öz atını tanımazmı?"**

---

[1] "Sünnə və camaat əhlinin izahına görə hədisin mənası budur ki, Allah, vacibləri və nafilələri yerinə yetirən və qadağalardan çəkinən sevimli qulunun gözlərini, qulaqlarını, əllərini və ayaqlarını xeyirxah işlər görməyə və bunun sayəsində savab qazanmağa, habelə, günah işlərdən çəkinməyə müvəffəq edər. Yəni, belə mömin adam yalnız Allahı razı salacaq sözləri dinləyər, yalnız Onu razı salacaq şeylərə baxar, yalnız Onu razı salacaq işlərə əl uzadar və yalnız Onu razı salacaq yerlərə gedər". ("Mədaric əs-Salikin", 3/319; "Təfsir İbn Kəsir", 2/580).

[2] "Səhih əl-Buxari", 6502.

[3] Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: **"Qardaşlarım isə, məni görməyib mənə iman gətirən kimsələrdir".** ("Silsilə əl-Əhadis əs-Səhihə", 2888-ci hədis).

*Səhabələr*: "Əlbəttə, *tanıyar*, ya Rəsulullah!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: **"*Qiyamət günü* onlar dəstəmaz almaqdan dolayı üzləri parlaq, əlləri və ayaqları nurlu halda *məhşərə* gələcəklər."**[1]

**Namaz qılan insanlar beş sinifə bölünürlər:**

Birinci sinif, özünə zülm edənlərdir. O kəslər ki, ya dəstəmazı naqis şəkildə alır, ya namazını vaxtlı-vaxtında qılmır, ya da onun vaciblərini və ərkanlarını doğru-düzgün şəkildə yerinə yetirmirlər.

İkinci sinif, vəsvəsəyə qapılanlardır. O kəslər ki, dəstəmazı düzgün qaydada alır, namazını da vaxtlı-vaxtında, vaciblərini və ərkanlarını tam şəkildə yerinə yetirməklə doğru-düzgün şəkildə qılır, lakin namaz əsnasında fikri yayınır, başqa bir şey haqda düşünürlər.

Üçüncü sinif, şeytanla mübarizə aparanlarıdr. O kəslər ki, namazını vaxtlı-vaxtında və doğru-düzgün şəkildə yerinə yetirir, üstəlik, vəsvəsə və kənar fikirlərlə mübarizə aparırlar ki, düşməni olan şeytan onların namazının savabından heç nə oğurlaya bilməsin. Belələri, namazda və cihadda olmuş sayılırlar.

Dördüncü sinif, namazı tam şəkildə yerinə yetirənlərdir. O kəslər ki, namazını vaxtlı-vaxtında və doğru-düzgün şəkildə, üstəlik, fikri-zikri namazda olduğu halda onu yerinə yetirir, onun savabını tam olaraq əldə etmək istəyirlər.

Beşinci sinif, Allaha yaxın olanlardır. O kəslər ki, namazını tam şəkildə yerinə yetirir, lakin bununla yanaşı Allahın qarşısında durduğu zaman sanki Onu görürmüş kimi, Ona ibadət

[1] "Səhih Muslim", 249.

edir, Rəbbinin ona nəzarət etdiyini düşünür və özünü yalnız Rəbbi ilə olan bu xəlvəti söhbətlə məşğul edirlər.

Birinci sinifə aid olanlar, namazı düzgün yerinə yetirmədiklərinə görə cəzalandırılacaqlar.

İkinci sinifə aid olanlar, namazda vəsvəsəyə uyduqlarına görə sorğu-suala çəkiləcəklər.

Üçüncü sinifə aid olanların namazı onların günahlarını silib aparır.

Dördüncü sinifə aid olanlar, böyük savab qazanırlar.

Beşinci sinifə aid olanlar isə, Allahın dostlarıdır."[1]

[1] İbn əl-Qeyyim, "əl-Vabil əs-Sayyib", 1/23-24.

# ZƏKAT

Zəkat vermək Allahın vacib buyurduğu əsaslardan biridir.

Müqəddimədə nəql etdiyimiz hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ Muaz ibn Cəbələ رضي الله عنه: **"... Əgər bunu[1] qəbul etsələr, onlara bildir ki, Allah onlara zəkat verməyi, varlılarından götürülüb kasıblarına verilməsini vacib buyurmuşdur"[2]–** deyə əmr etmişdir. Bu da, o deməkdir ki, adam şəhadət gətirib müsəlman olduqdan və namaz qılmağa başladıqdan sonra, malının zəkatını verməlidir.

Qurana nəzər salsaq, iyirmi altı ayədə zəkatın namazla birlikdə zikr edildiyini görə bilərik. O ayələrdən bir neçəsini qeyd edək:

**"Namaz qılın, zəkat verin!"[3]**

**"Halbuki, onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!"[4]**

**Zəkat,** müəyyən edilmiş maldan, müəyyən olunmuş vaxtda xüsusi sinif insanlar üçün çıxarılan vacib haqdır.[5]

**Müəyyən edilmiş mal deyildikdə,** aşağıda qeyd edilən beş növ mal qəsd edilir:

---

[1] Yəni, gündəlik beş vaxt namaz qılmağın vacib olmasını.

[2] Hədisi tam olaraq kitabın müqəddiməsində (səh.6) qeyd etmişik.

[3] "əl-Bəqərə" surəsi, 43.

[4] "əl-Bəyyinə" surəsi, 5.

[5] "əş-Şərh əl-Mumti alə Zad əl-Mustəqnə", 6/17.

1. Ev heyvanları: dəvə, inək[1] və qoyun[2];
2. Dənli bitkilər[3] və saxlanılması mümkün olan meyvələr[4];
3. Nağd pul – qızıl, gümüş və kağız əskinaslar;
4. Ticarət malı;
5. Mədəndən çıxarılan qiymətli əşyalar və tapılan xəzinə.

**Müəyyən olunmuş vaxt deyildikdə,** zəkat miqdarına çatmış malın üstündən bir ilin keçməsi qəsd edilir.

Bu şərt yalnız ev heyvanlarına, nağd pula və ticarət malına aiddir. Dənli bitkilərin və saxlanılması mümkün olan meyvələrin zəkatı isə məhsul yığımı zamanı verilməlidir. O ki qaldı mədəndən çıxarılmış qiymətli əşyalara və tapılan xəzinəyə, onların zəkatı çıxarılıb əldə edildiyi vaxt verilməlidir. Heyvanların qarnındakı balalara və ticarət mallarının gəlirinə gəlincə, bunların zəkatı onların əslinin (sərmayənin) zəkat vaxtına aid edilir.

**Xüsusi sinif insanlar deyildikdə isə,** aşağıdakı ayədə zikr edilən səkkiz sinif insan qəsd edilir:

**“Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına,**

---

[1] Yəni, iri buynuzlu ev heyvanları. Camış da buna aiddir. İslam alimləri camışdan zəkat verilməsinin vacib olması xüsusunda ittifaq etmişlər. (Bax: İbn Munzir, “əl-İcma”, səh. 45; İbn Abdul-Bərr, “əl-İstizkar”, 3/191; İbn Qudamə, “əl-Muğni”, 2/444).

[2] Yəni, xırda buynuzlu ev heyvanları. Keçi də buna aiddir.

[3] Buğda, arpa və s.

[4] Xurma, kişmiş və s.

**borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah** ***hər şeyi*** **biləndir, hikmət sahibidir."**[1]

Qeyd etmək lazımdır ki, uca Allah zəkat verməyi əvvəlki ümmətlərə də vacib buyurmuşdur. Bu xüsusda Quranda zikr edilən ayələr bunlardır:

**"Biz ona** (İbrahimə) **İshaqı, ardından da Yəqubu bəxş etdik və hamısını əməlisaleh insanlar etdik. Biz Öz hökmümüzlə onları doğru yol göstərən rəhbərlər etmişdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər."**[2]

**"Kitabda İsmaili də xatırla! Həqiqətən, o öz vədinə sadiq idi. O, bir elçi və peyğəmbər idi. O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı."**[3]

**"Bir zaman Biz İsrail oğulları ilə: "Yalnız Allaha ibadət edəcək, valideynlərə, qohum-əqrəbaya, yetimlərə və kasıblara xeyirxahlıq edəcək, insanlara xoş söz deyəcək, namaz qılacaq və zəkat verəcəksiniz!"–** ***deyə*** **əhd bağladıq."**[4]

İsa عليه السلام beşikdə ikən dil açıb demişdir: **"Mən Allahın quluyam! O, mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılmağı və zəkat verməyi əmr etdi."**[5]

---

[1] "ət-Tovbə" surəsi, 60.
[2] "əl-Ənbiya" surəsi, 72-73.
[3] "Məryəm" surəsi, 54-55.
[4] "əl-Bəqərə" surəsi, 83.
[5] "Məryəm" surəsi, 30-31.

Əziz müsəlmanlar! Məlumunuz olsun ki, malın zəkatını verməmək böyük günahdır və Allahın əmrini yerinə yetirməyənləri ağrılı-acılı əzab gözləyir. Buna dəlalət edən dəlillərdən bəzisi bunlardır:

**“Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ. O gün bu** ***yığdıqları sərvətlər*** **Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və** ***onlara:*** **“Budur özünüz üçün yığdıqlarınız. Elə isə, dadın yığdıqlarınızı!”–** ***deyiləcəkdir.”***[1]

**“Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edən kimsələr, bunun onların xeyrinə olduğunu güman etməsinlər. Əksinə, bu, onların zərərinədir. Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır.”**[2]

Peyğəmbər ﷺ demişdir:[3] **“Kim Allahın ona bəxş etdiyi var-dövlətin zəkatını vermirsə, Qiyamət günü o var-dövlət başının tükü tökülmüş, gözlərinin də üstündə iki qara xalı olan ilana çevrilib onun boynuna sarılacaq**[4] **və ağzının hər iki tərəfindən yapışıb deyəcək: “Mən sənin var-dövlətinəm! Mən sənin xəzinənəm!”** Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: **“Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edən kimsələr, bunun onların xeyrinə olduğunu güman etməsinlər. Əksinə, bu, onların zərərinədir. Onların xəsislik etdikləri şey Qiyamət**

---

[1] “ət-Tovbə” surəsi, 34-35.

[2] “Ali-İmran” surəsi, 180.

[3] “Səhih əl-Buxari”, 1403.

[4] Bu ifadə ilanın həddən artıq zəhərli olduğuna işarədir.

**günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır."**[1]

Digər hədisdə o demişdir: **"*Qiyamət günü* dəvələr öz sahibinin yanına *dünyada* olduğundan daha gözəl görkəmdə gələcək. Əgər sahibi onlardan zəkat verməmişdirsə, onu ayaqlarının altına alıb tapdalayacaqlar. Həmçinin qoyunlar da öz sahibinin yanına *dünyada* olduğundan daha gözəl görkəmdə gələcək. Əgər sahibi onlardan zəkat verməmişdirsə, dırnaqları ilə onu tapdalayacaq, buynuzları ilə də buynuzlayacaqlar."**[2]

## Zəkat verməyin faydaları.

Malın zəkatını verməyin olduqca çox faydası var. O faydalardan bəziləri bunlardır:

**– Zəkat vermək** insanı pak edib, təmizə çıxardır. Bu xüsusda Quranda belə buyurulur: **"Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan."**[3]

**– Zəkat vermək** malın xeyir-bərəkətinin artmasına səbəbdir. Bu xüsusda Quran və hədislərdə belə buyurulur:

**"Nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!"**[4]

**"Mallarını Allah yolunda xərcləyənlərin misalı yeddi sünbül verən bir toxumun misalına bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsənin *mükafatını* artırar. Allahın *lütfü* genişdir, *O, hər şeyi* biləndir."**[5]

---

[1] "Ali-İmran" surəsi, 180.
[2] "Səhih əl-Buxari", 1402; "Səhih Muslim", 988.
[3] "ət-Tovbə" surəsi, 103.
[4] "Səba" surəsi, 39.
[5] "əl-Bəqərə" surəsi, 261.

**"Verilən sədəqə[1] maldan heç bir şey əksiltmir".[2]**

**"Hər səhər insanlar yuxudan oyandıqda, yer üzünə iki mələk enir. Onlardan biri: "Allahım, malını *Sənin yolunda* xərcləyən hər kəsə *etdiyinin* əvəzini ver!"– deyir. Digəri isə: "Allahım, xəsislik edən hər kəsi məhv et!"– deyir."[3]**

**– Zəkat verən mömin** Qiyamət günü kölgə altında kölgələnəcək yeddi sinif insandan biri olacaq. Bu xüsusda rəvayət edilmiş hədisdə o yeddi sinif mömindən biri belə vəsf edilir: **"Sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam."[4]**

**– Zəkat verən kimsənin günahları silinir.** Muaz ibn Cəbəlin rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sədəqə[5], su odu söndürdüyü kimi, günahları silir."[6]**

**– Zəkat vermək, Allahın verdiyi nemətə şükür etmək deməkdir.** Nemətə şükür etmək isə o nemətin artması üçün səbəbdir. Bu xüsusda Quranda belə buyurulur: **"O zaman Rəbbiniz *belə* buyurmuşdur: "Əgər şükür etsəniz, sizə *olan nemətimi* mütləq artıraram..."[7]**

**– Zəkat vermək, malın şərini mal sahibindən uzaq edir.** Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim malının zəkatını verərsə, o malın şəri ondan uzaq olar."[8]**

---

[1] Burada "sədəqə" deyildikdə, zəkat da buna aid edilir.

[2] "Səhih Muslim", 2588.

[3] "Səhih əl-Buxari", 1442; "Səhih Muslim", 1010.

[4] "Səhih əl-Buxari", 1423; "Səhih Muslim", 1031.

[5] Hədisdə "sədəqə" deyildikdə, zəkat da buna aid edilir.

[6] "Sunən ət-Tirmizi", 2616; "Musnəd İmam Əhməd", 5/531; "İrva əl-Ğəlil", 2/138.

[7] "İbrahim" surəsi, 7.

[8] Təbərani, "Mocəm əl-Ovsat", 1345; "Səhih ət-Tərğib", 1/458.

**– Zəkat vermək, möminin hidayətinin və təqvasının artmasına səbəbdir:**

**"Əgər** ***Allahın rəsuluna*** **itaət etsəniz, doğru yola yönəlmiş olarsınız".**[1] Zəkat vermək də bu itaətə aiddir.

**"Doğru yolla gedənlərə gəldikdə isə,** ***Allah*** **onlara hidayətini artırar və onları təqvalı olmağa müvəffəq edər."**[2]

**– Zəkat vermək, mömin adamın düz yolla getməsi və nicat tapması üçün səbəbdir:**

**"Bu, içində heç bir şübhə olmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır. O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən** ***Allah yolunda*** **xərcləyirlər** (zəkat və sədəqə verirlər)**. O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. Onlar öz Rəbbindən** ***gələn*** **doğru yol üzərindədirlər. Məhz onlar nicat tapanlardır."**[3]

**– Zəkat vermək, möminin axirət sıxıntılarının aradan qaldırılması, Allahın ona yardım etməsi, onun işlərini asanlaşdırması və onun günahlarını örtməsi üçün səbəbdir.** Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Kim bir mömini dünya sıxıntılarından birindən qurtararsa, Allah onu Qiyamət gününün sıxıntılarından birindən qurtarar. Kim borcunu qaytara bilməyən bir kimsənin işini asanlaşdırarsa, Allah onun dünya və axirətdəki işlərini asanlaşdırar. Kim bir müsəlmanın eyiblərini örtərsə, Allah, həm bu dünyada, həm də axirətdə onun eyiblərini örtər. Adam mömin qardaşının köməyində durduqca, Allah da ona kömək edər."**[4]

---

[1] "ən-Nur" surəsi, 54.
[2] "Muhəmməd" surəsi, 17.
[3] "əl-Bəqərə" surəsi, 2-5.
[4] "Səhih Muslim", 2699.

Digər hədisdə o belə buyurmuşdur: **"Kim bir müsəlmanı bir sıxıntıdan qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar. Kim bir müsəlmanın eybini örtərsə, Allah da Qiyamət günü onun eybini örtər."**[1]

**– Kasıblara verilən zəkat, ruzi və qələbə qazanmaq üçün səbəbdir.** Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Məgər, sizə aranızdakı kasıb möminlərin** ***duaları sayəsində*** **zəfər və ruzi bəxş edilmirmi?!"**[2]

**– Zəkat vermək mömin adamın qorxu və kədərini aradan qaldırır:**

**"Mallarını gecə və gündüz, gizli və aşkar xərcləyənlərin öz Rəbbi yanında mükafatı vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər."**[3]

**– Zəkat vermək, möminin dünyada və axirətdə Allahın rəhmətinə qovuşması üçün ən böyük səbəblərdən biridir:**

**"Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, sizə rəhm edilsin."**[4]

**"*Allah* dedi: "İstədiyimi əzabıma düçar edirəm. Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu *Allahdan* qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam."**[5]

---

[1] "Səhih əl-Buxari", 2442; "Səhih Muslim", 2580.
[2] "Səhih əl-Buxari", 2896.
[3] "əl-Bəqərə" surəsi, 274.
[4] "ən-Nur" surəsi, 56.
[5] "əl-Əraf" surəsi, 156.

**– Uca Allah zəkat verən möminlərə Cənnəti vəd etmişdir:**

**“Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar *insanlara* yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir, namaz qılır, zəkat verir, Allaha və Onun rəsuluna itaət edirlər. Allah onlara rəhm edəcək. Həqiqətən, Allah qüdrətlidir, hikmət sahibidir. Allah mömin kişilərə və mömin qadınlara *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur.”[1]**

**“Möminlər, həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər; o kəslər ki, sözbazlıqdan qaçırlar; o kəslər ki, zəkat verirlər; o kəslər ki, övrət yerlərini *həmişə* qoruyurlar; zövcələri və sahib olduqları cariyələr istisnadır. Onlar *buna görə heç* qınanmazlar. Bundan artığına can atanlar isə həddi aşanlardır. O *mömin* kəslər ki, əmanətlərini və vədlərini qoruyurlar. O kəslər ki, namazlarını öz vaxtlarında qılırlar. Məhz onlar – varis olanlardır. O kəslər ki, Firdovs cənnətinə varis olacaqlar; onlar orada əbədi qalacaqlar.”[2]**

### Zəkat verməyin qaydası:

Əvvəldə qeyd etdik ki, zəkat ev heyvanlarından, dənli bitkilərdən və saxlanılması mümkün olan meyvələrdən, nağd puldan, ticarət malından və tapılan xəzinədən verilir. Bunların verilmə qaydası aşağıdakı kimidir:

---

[1] “ət-Tovbə” surəsi, 71-72.

[2] “əl-Muminun” surəsi, 1-11.

## 1. Mal-qaranın zəkatı:

### Dəvənin[1] zəkatı.[2]

Dəvələrin sayı 5-dən az olarsa, bunlardan zəkat verilmir. Sayı 5 və daha çox olduğu təqdirdə onlardan zəkat çıxartmaq vacibdir.

| Dəvə sayı | Çıxarılan zəkat |
|---|---|
| 5-dən 9-a qədər | 1 qoyun |
| 10-dan 14-ə qədər | 2 qoyun |
| 15-dən 19-a qədər | 3 qoyun |
| 20-dən 24-ə qədər | 4 qoyun |
| 25-dən 35-ə qədər | 1 ədəd 1 illik dişi dəvə |
| 36-dan 45-ə qədər | 1 ədəd 2 illik dişi dəvə |
| 46-dan 60-a qədər | 1 ədəd 3 illik dişi dəvə |
| 61-dən 75-ə qədər | 1 ədəd 4 illik dişi dəvə |
| 76-dan 90-a qədər | 2 ədəd 2 illik dişi dəvə |
| 91-dən 120-yə qədər | 2 ədəd 3 illik dişi dəvə |
| 121-dən 129-a qədər | 3 ədəd 2 illik dişi dəvə |

Dəvələrin sayı 129-dan çox olarsa, hər 40 dəvəyə 1 ədəd 2 illik dişi dəvə və hər 50 dəvəyə 1 ədəd 3 illik dişi dəvə zəkat verilir.

– 130 dəvəyə: 2 ədəd 2 illik dişi dəvə və 1 ədəd 3 illik dişi dəvə;

---

[1] Heyvanın erkək və ya dişi, qoca və ya cavan heyvan olması heç bir əhəmiyyət kəsb etmir.

[2] İslam alimləri dəvənin zəkatının verilməsinin vacib olması xüsusunda yekdil rəydədirlər. Buna fiqhi istilahda "icma" deyilir. (İbn Qudamə, "əş-Şərh əl-Kəbir", 6/394).

– 140 dəvəyə: 2 ədəd 3 illik dişi dəvə və 1 ədəd 2 illik dişi dəvə;

– 150 dəvəyə: 3 ədəd 3 illik dişi dəvə;

– 160 dəvəyə: 4 ədəd 2 illik dişi dəvə;

– 170 dəvəyə: 3 ədəd 2 illik dişi dəvə və 1 ədəd 3 illik dişi dəvə;

– 180 dəvəyə: 2 ədəd 3 illik dişi dəvə və 2 ədəd 2 illik dişi dəvə;

– 190 dəvəyə: 3 ədəd 3 illik dişi dəvə və 1 ədəd 2 illik dişi dəvə;

– 200 dəvəyə: 4 ədəd 3 illik dişi dəvə, yaxud 5 ədəd 2 illik dişi dəvə zəkat verilməlidir.

Bu bölgü Ənəs ibn Malikin رضي الله عنه rəvayət etdiyi hədisdə qeyd edilmişdir.[1]

**İri buynuzlu heyvanın[2] zəkatı.**

İri buynuzlu heyvanların sayı 30-dan az olarsa, bunlardan zəkat verilmir. Sayı 30 və bundan çox olduğu təqdirdə onlardan zəkat çıxartmaq vacibdir.

| İri buynuzlu heyvanın sayı | Çıxarılan zəkat |
|---|---|
| 30-dan 39-a qədər | 1 ədəd 1 illik dişi və ya erkək mal |
| 40-dan 59-a qədər | 1 ədəd 2 illik dişi mal |
| 60-dan 69-a qədər | 2 ədəd 1 illik dişi və ya erkək mal |
| 70-dan 79-a qədər | 1 ədəd 1 illik dişi, yaxud erkək mal və 1 ədəd 2 illik dişi mal |

[1] "Səhih əl-Buxari", 1454; "Sunən Əbu Davud", 1570.

[2] Heyvanın erkək və ya dişi, qoca və ya cavan heyvan olması heç bir əhəmiyyət kəsb etmir.

Beləcə, hər 30 maldan 1 ədəd 1 illik dişi və ya erkək mal və hər 40 maldan 1 ədəd 2 illik dişi mal zəkat verilir.

Bu bölgü Əli ibn Əbu Talibin[1], Muaz ibn Cəbəlin[2] və Abdullah ibn Məsudun[3] رضي الله عنهم rəvayət etdiyi hədislərdə qeyd edilmişdir.

**Xırda buynuzlu heyvanın[4] zəkatı.[5]**

Xırda buynuzlu heyvanların sayı 40-dan az olarsa, bunlardan zəkat verilmir. Sayı 40 və bundan çox olduğu təqdirdə, onlardan zəkat çıxartmaq vacibdir.

| Xırda buynuzlu heyvanın sayı | Çıxarılan zəkat |
|---|---|
| 40-dan 120-yə qədər | 1 qoyun |
| 121-dən 200-ə qədər | 2 qoyun |
| 201-dən 300-ə qədər | 3 qoyun |

Xırda buynuzlu heyvanın sayı 300 keçərsə, hər yüz heyvana bir ədəd qoç zəkat verilir. Bu bölgü Ənəs ibn Malikin رضي الله عنه rəvayət etdiyi hədisdə[6] qeyd edilmişdir.

Zəkat verilən qoyunun yaşı altı aydan çox olmalıdır.

[1] "Sunən Əbu Davud", 1572; "Səhih Sunən Əbu Davud", 1/434.
[2] "Sunən Əbu Davud", 1576; "Səhih Sunən Əbu Davud", 1/437.
[3] "Sunən ət-Tirmizi", 622; "Səhih Sunən ət-Tirmizi", 1/343.
[4] Heyvanın erkək və ya dişi, qoca və ya cavan heyvan olması heç bir əhəmiyyət kəsb etmir.
[5] İslam alimləri xırda buynuzlu heyvanın zəkatının verilməsinin vacib olması xüsusunda yekdil rəydədirlər. (İbn Qudamə, "əl-Muğni", 4/38).
[6] "Səhih əl-Buxari", 1454.

**<u>I qeyd</u>:** Yuxarıda sadalanan üç sinif heyvandan başqa heç bir heyvandan[1] zəkat verilmir.[2]

**<u>II qeyd</u>:** Malın ən dəyərlisini[3] və ya keyfiyyətsiz[4] olanını zəkat vermək sünnəyə ziddir.[5]

## 2. Bitkilərin zəkatı:

Bu xüsusda Quranda belə buyurulur:

**"Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan çıxartdığımız şeylərin yaxşısından *Allah yolunda* xərcləyin."**[6]

**"Yığım günü onların zəkatını verin..."**[7]

| Bitkinin növü | Çıxarılan zəkat |
|---|---|
| Yağış, çay və s. təbii sularla sulanan bitkilər (dəmyə) | Yığılan məhsulun onda bir hissəsi. |
| Sahibi tərəfindən (onun əziyyəti və xərci ilə) sulanan bitkilər | Yığılan məhsulun onda bir hissəsinin yarısı. |

---

[1] At, uzunqulaq, qatır, dovşan, toyuq, qaz, ördək, göyərçin və s.

[2] "Səhih əl-Buxari", 1463 və 1464; "Səhih Muslim", 982; "Sunən Əbu Davud", 1574.

[3] Süd verən, yaxud qarnında balası olan heyvan, yaxud iri buynuzlu qoç və s.

[4] Arıq, kor, xəstə, çox qoca və ya başqa ciddi qüsuru olan heyvan.

[5] "Səhih əl-Buxari", 1295, 1395, 1455, 1496 və 4347; "Səhih Muslim", 19 və 30; "Sunən Əbu Davud", 1570 və 1580; "Sunən ən-Nəsai", 2457.

[6] "əl-Bəqərə" surəsi, 267.

[7] "əl-Ənam" surəsi, 141.

612 kq və ondan artıq miqdarda olan bitkilərdən zəkat verilir. Bundan az miqdarda olduqda isə zəkat düşmür.

Bu bölgü Abdullah ibn Ömər və Əbu Səid əl-Xudrinin رضي الله عنهم rəvayət etdikləri hədislərdə[1] qeyd olunmuşdur.

**Qeyd:** tərəvəz və saxlanılması mümkün olmayan meyvələrdən zəkat verilmir.[2]

## 3. Qızıl və gümüşün zəkatı:

| Miqdarı | Çıxarılan zəkat |
|---|---|
| 20 misqal (85 qram) və daha çox qızıl | Ümumi miqdarın qırxda bir hissəsi, yəni 2.5% |
| 200 dirhəm (595 qram) və daha çox gümüş | Ümumi miqdarın qırxda bir hissəsi, yəni 2.5% |

Bundan az miqdarda olan gümüş və qızıla zəkat düşmür.

Bu bölgü Əli ibn Əbu Talib və Əbu Səid əl-Xudrinin رضي الله عنهم rəvayət etdiyi hədislərdə[3] qeyd edilmişdir.

## 4. Ticarət malının zəkatı:

Bir çox alimlər ümumi dəlillərə əsaslanaraq, ticarət malından zəkat verməyin vacib olduğunu söyləmişlər. Belə ki, ticarət malından, qızıl və gümüş kimi, bir ilin tamamında malın ümumi dəyərinin qırxda bir hissəsi, yəni 2.5%-i zəkat verilməlidir. İslam alimlərinin əsaslandığı dəlillərin bəzisi bunlardır:

[1] "Səhih əl-Buxari", 1483 və 1484; "Səhih Muslim", 979 və 981.
[2] "Sunən ət-Tirmizi", 638; "İrva əl-Ğəlil", 3/279.
[3] "Səhih əl-Buxari", 1454 və 1459; "Sunən Əbu Davud", 1572; "Musnəd İmam Əhməd", 1/121.

Quran ayəsində belə buyurulur: **"Varlıların malında diləyənin və yoxsulun payı var."**[1]

Peyğəmbər ﷺ səhabəsi Muaz ibn Cəbəli رضي الله عنه İslam dinini təbliğ etmək üçün Yəmənə göndərdikdə, ona belə demişdir: **"... Allah onlara zəkat verməyi, onun varlılarından götürülüb kasıblarına verilməsini vacib buyurmuşdur..."**[2]

**Qiyas:** Ticarət malını satıb əldə edilən pul, qızıl və gümüş miqdarı ilə müqayisə olunur.

### 5. Mədəndən çıxarılan qiymətli əşyanın[3] və ya tapılan xəzinənin zəkatı:

Mədəndən çıxardılan qiymətli əşya iyirmi misqal (85 qram) və daha artıq qızıl dəyərində olarsa, o əşya əldə edildikdən sonra[4] onun qırxda bir hissəsi zəkat verilir.[5]

**Xəzinənin zəkatına gəlincə**, onun beşdə bir hissəsi zəkat verilməlidir.[6]

### Zəkatın götürülməsi ilə bağlı qayda

Bu kitabda şərh olunan hədisin axırında Peyğəmbər ﷺ dəvət əhlinə belə buyurur: **"Əgər bu işdə də sənə itaət etsələr, onda onların mallarının ən qiymətlisini götürməkdən çəkin və məzlumun bədduasından qorx. Çünki onunla Allah arasında heç bir pərdə yoxdur."**[7]

---

[1] "əz-Zariyat" surəsi, 19.
[2] "Səhih əl-Buxari", 1395, 4347 və 1496; "Səhih Muslim", 19 və 30.
[3] Qızıl, gümüş, yaqut, kəhrəba, dəmir, qiymətli metallar, neft və s.
[4] İbn Qudamə, "əl-Muğni", 4/238-244.
[5] "Sunən Əbu Davud", 3061.
[6] "Səhih əl-Buxari", 1499, 2355, 6912 və 6913; "Səhih Muslim", 1710.
[7] Hədisi tam olaraq kitabın müqəddiməsində (səh.6) qeyd etmişik.

Yəni, zəkat olaraq onların mallarının ən gözəl olanını seçib götürmək olmaz, orta keyfiyyətdə olanları götürülməlidir. Əgər insanların mallarının ən yaxşısını seçib götürsən, onlara zülm etmiş olarsan. Buna görə sənə bəddua edə bilərlər. Odur ki, onların bədduasından ehtiyat et. **"Çünki o bəddua ilə Allah arasında pərdə yoxdur",** yəni, dərhal Allahın hüzuruna yüksələr, Allah da onu qəbul edər.

Məzlumun duasının qəbul olunması barədə bir başqa hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Üç *növ* dua vardır ki, onların qəbul olunmasına heç bir şəkk-şübhə yoxdur: məzlumun duası[1], müsafirin duası və valideynin öz övladının əleyhinə** [yaxud lehinə] **etdiyi dua".**[2]

---

[1] Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Məzlum, kafir olsa belə, onun duası ilə Allah arasında** (bu duanın qarşısını ala biləcək) **heç bir pərdə yoxdur"** ("Musnəd İmam Əhməd", 3/153; "Səhih ət-Tərğib vət-Tərhib", 2231).

[2] "Sunən Əbu Davud", 1536; "Sunən ət-Tirmizi", 2029; "Sunən İbn Macə", 3862; "Sunən ən-Nəsai", 8293; "Musnəd İmam Əhməd", 2/258.

# NƏTİCƏ

Rəsulullahın ﷺ Muaz ibn Cəbəli رضي الله عنه Yəmənə göndərərkən ona tapşırdığı vəzifə barədə xəbər verən bu möhtəşəm hədisdən aşağıdakı nəticələri çıxartmaq olar: [1]

**Birincisi,** Allahın dinini yaymaq üçün dəvətçiləri müxtəlif ölkələrə göndərməyin vacib olmasıdır. Bu da, əlində səlahiyyəti olan kimsələrin öhdəsinə düşən vəzifədir.

**İkincisi,** dəvətə göndərilən kimsəyə, dinə dəvət edəcəyi insanların halını bəyan etmək lazımdır ki, onları necə dəvət edəcəyinə hazırlıq görsün və onlarla özlərinə layiq olan tərzdə rəftar etsin. Belə etsin ki, onların qarşısında aciz vəziyyətdə qalmasın və onların gətirdiyi şübhələr onu susdurmasın. Belə olduğu təqdirdə, dəvətə böyük zərər vurmuş olar. Odur ki, hər bir dəvətçi, dəvət etdiyi kimsələrin suallarına və şübhələrinə cavab verməyə hazır olmalıdır.

**Üçüncüsü,** insanları İslam dininə dəvət edən adam onları ilk öncə: "Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna" şahidlik etməyə dəvət etməlidir. Kafirlərin yanına getdikdə, məsələn, onlara: "İçki içməyi tərgidin, zinadan əl çəkin, faizlə məşğul olmayın" və s. buna bənzər sözlər deməməlidir. Bu, yanlışdır. Çünki əvvəlcə təməl olanlardan başlanılmalı, sonra ikinci dərəcəli əmr və qadağalar təbliğ edilməlidir. Yəni dəvət edilənlər, Allahdan başqa ibadətə layiq məbudun olmadığna və Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna şahidlik etməlidirlər. Bundan sonra

---

[1] Muhəmməd ibn Saleh əl-Useymin, "Şərh Riyad əs-Salihin", 2/502-508, 208-ci hədisin şərhi.

dinin digər əsasları, – daha əhəmiyyətli olanlarından başlamaq şərtilə, təbliğ edilməlidir.

**Dördüncüsü,** dəvət edilən insanlar, onlara yönəlmiş xitabı başa düşürlərsə, onu əlavə izah etməyə lüzum yoxdur. Çünki Rəsulullah ﷺ: **"Onları Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və mənim Allahın rəsulu olduğuma şəhadət verməyə dəvət et"**– demiş, lakin bu cümləni onlara izah etməmişdir. Çünki onlar, bunun mənasını bilirdilər. Belə ki, onların dili, ərəb dili idi. Yox, əgər bu *kəlməni onun* mənasını bilməyən bir kimsəyə desək, ona bu şəhadət kəlməsinin mənasını izah etməyimiz vacibdir. Çünki sözün mənasını anlamayan kimsəyə, onun zahiri ləfzini bilmək heç bir fayda verməyəcək. Odur ki, uca Allah, göndərdiyi hər peyğəmbəri, qövmünün dilini bilən kimsələrdən seçmişdir ki, dini onlara başa sala bilsin. Məsələn, "lə ilahə illəllah" kəlməsinin mənasını bilməyən bir adama bu kəlməni təbliğ etdikdə, mütləq onun mənasını ona izah etməli və deməliyik ki: "La ilahə illəllah", Allahdan başqa *ibadətə layiq* haqq məbud yoxdur, Allahdan savayı ibadət edilən hər şey batildir, deməkdir." Necə ki, uca Allah buyurur: **"Bu belədir. Çünki Allah Haqdır. *Kafirlərin* Ondan başqa ibadət etdikləri isə batil *bütlərdir*."**[1]

Həmçinin, "Muhəmmədin Allahın rəsulu olduğuna şahidlik etmək" də belədir. İnsanın, bunun mənasını qəlbi ilə anlamayıb, sadəcə dili ilə deməsi və ya qulağı ilə eşitməsi yetərli deyil. Odur ki, hər bir dəvətçi, dəvət etdiyi kimsələrə: "Muhəmməd Allahın rəsuludur" sözünün nə demək olduğunu izah etməlidir. Məsələn, deməlidir ki: "Muhəmməd, Allahın göndərdiyi,

---

[1] Loğman, 30.

Haşim oğullarından gələn bir şəxsdir. Uca Allah onu, insanları zülmətlərdən nura çıxartmaq üçün göndərmişdir. Allah onu, doğru yol göstəricisi və haqq dinlə göndərmişdir. O da, insanlara, xeyir işlərin hamısını bəyan etmiş və onları bu işləri görməyə dəvət etmişdir. Habelə, şər işlərin hamısını bəyan etmiş və onları bu işləri görməkdən çəkindirmişdir. O, Allahın rəsuludur və onun təbliğ etdiyi xəbərləri təsdiq etmək, çəkindirdiyi əməllərdən də uzaq durmaq vacibdir". Onlara həmçinin izah etməlidir ki, Muhəmməd bir peyğəmbərdir, İlah deyil. Təbii ki, yalançı da deyil. Əksinə, o, bir quldur, ona ibadət edilməz. Peyğəmbərdir, əsla yalan danışmaz. Allahın salavatı və salamı onun üzərinə olsun!

Onlara həmçinin izah etməlidir ki, bu iki şəhadət kəlməsi İslamın açarıdır. Odur ki, Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin ﷺ Onun rəsulu olduğuna şahidlik etmədən heç bir ibadət doğru sayılmır.

**Beşincisi,** şəhadət kəlməsindən sonra, beş vaxt qılınan namazın ən əhəmiyyətli ibadət sayılmasıdır. Çünki Rəsulullah ﷺ belə buyurmuşdur: **"Əgər bunu qəbul etsələr, onlara bildir ki, Allah onlara gündəlik olaraq beş vaxt namaz qılmağı vacib buyurmuşdur."**

**Altıncısı,** vitr namazının vacib olmamasıdır. Çünki burada Rəsulullah ﷺ vitr namazını zikr etməmişdir. Sadəcə beş vaxt namazı zikr etmişdir. Bu rəy, alimlərin bildirdiyi rəylərin ən doğru olanıdır.

**Yeddincisi,** zəkat verməyin vacib olmasıdır. Zəkat, İslamın beş əsasının üçüncüsüdür. Şəhadət kəlməsindən sonra ikinci sırada gəlir. Odur ki, Peyğəmbər ﷺ Muaza رضي الله عنه belə buyurmuşdur: **"Əgər bunu qəbul etsələr, onlara bildir ki, Allah onlara**

**zəkat verməyi, onun varlılarından götürülüb kasıblarına verilməsini vacib buyurmuşdur.”**

**Səkkizincisi,** zəkat verməyin kasıblara vacib olmamasıdır. Çünki Rəsulullah ﷺ: **“Varlılarından götürülüb kasıblarına verilməlidir”**– demişdir. Lakin varlı kimə deyilir? Məgər, ancaq milyonları olan varlı sayılır? Bu hədisdə varlı deyildikdə, malı, nisaba (zəkat verilməsi vacib olan miqdara) çatan kimsə qəsd edilir. Adam nisab miqdarına sahib olarsa, varlı sayılar və o malın zəkatını vermək ona vacib olar. Başqa yöndən kasıb olsa da, zəkat vermək xüsusunda varlı olduğu təqdirdə, malının zəkatını verməlidir.

**Doqquzuncusu,** zəkatı, çıxarılan yerin kasıblarına vermək vacibdir. Çünki Rəsulullah ﷺ: **“kasıblarına verilməlidir”**– demişdir. Heç bir səbəb olmadan o zəkatı başqa diyarda yaşayan kasıblara vermək olmaz. Çünki o bölgənin kasıbları buna daha çox haqlıdırlar. Hətta bəzi alimlər, bir bölgədə möhtac olan insanlar olduğu halda, o bölgədə çıxarılan zəkatın başqa yerlərə göndərilməsini haram hesab etmişlər. Dəlil olaraq da bu hədisə əsaslanmışlar. Şəkk yoxdur ki, insanın öz şəhərində kasıblar olduğu halda, malının zəkatını başqa yerə göndərməsi xətadır. Çünki əvvəlcə yaxında olanlara yaxşılıq etmək gərəkdir.

**Onuncusu,** zəkatın hamısının, zəkat verilcək səkkiz sinifdən yalnız birinə verilməsinin icazəli olmasıdır. Zəkatın veriləcəyi siniflər səkkizdir: yoxsullar, kasıblar, onu yığıb paylayanlar, qəlbləri İslam dininə isinişdiriləcək kimsələr, kölələrin azad olunması, borclular, Allah yolunda cihad edənlər və

müsafirlər.[1] Zəkatını verən adam, onun hamısını bu siniflərdən birinə verə bilər. Hətta bu siniflərdən olan bir nəfərə verərsə, bu da yetərli sayılar. Məsələn, zəkat verən adam zəkatını bir kasıba versə, bunda heç bir qəbahət olmaz. Məsələn, bir adamın yüz min manat borcu olsa, sənin də zəkatın yüz min manat olsa və o adamın borcunu ödəsən, öhdənə düşəni yerinə yetirmiş olarsan.

**On birincisi,** zülm etməyin haram sayılmasıdır. Zəkat yığan məmurun maldan götürülməsi vacib olan miqdardan artığını götürməsi icazəli deyil. Çünki Allahın Elçisi ﷺ Muazı رضي الله عنه zülm etməkdən çəkindirib: **"Onların mallarının ən qiymətlisini götürməkdən çəkin"**– demişdir:

**On ikincisi,** məzlumun bədduasının qəbul olmasıdır. Bu xüsusda Rəsulullah ﷺ: **"Çünki onunla Allah arasında pərdə yoxdur"**– demişdir.

**On üçüncüsü,** zülm etməkdən çəkinmək və məzlumun bədduasından qorxmaqdır. Belə ki, Rəsulullah ﷺ: **"Məzlumun bədduasından qorx. Çünki onunla Allah arasında pərdə yoxdur"**– deyə buyurmuşdur.

---

[1] **"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur".** ("ət-Tovbə" surəsi, 60).

# MÜNDƏRİCAT

**MÜQƏDDİMƏ** ........................................................................5
**ŞƏHADƏT** ...........................................................................12
“La ilahə iləllah” kəlməsinin mənası ..................................14
“La ilahə illəllah” kəlməsinin (tövhidin) fəzilətləri ..................15
“La ilahə illəllah”ın şərtləri ..........................................41
Şəhadəti batil edən və insanı İslamdan çıxaran əməllər ........... 47
Muhəmməd peyğəmbərin ﷺ Allahın rəsulu olduğuna şəhadət gətirmək və onun tələbləri.........................................50
**NAMAZ**...............................................................................57
Namazların vaxtları və onlara dəlillər ......................................61
Namazın fəzilətləri.....................................................................65
Namaz qılan insanlar beş sinifə bölünür ...................................73
**ZƏKAT** ................................................................................75
Zəkatın əvvəlki ümmətlərə vacib buyurulmasına dəlillər..........77
Zəkat verməyin faydaları ..........................................................79
Zəkat verməyin qaydası ............................................................83
*1. Mal-qaranın zəkatı* .........................................................*84*
*2. Bitkilərin zəkatı* ..............................................................*87*
*3. Qızıl və gümüşün zəkatı* ..................................................*88*
*4. Ticarət malının zəkatı* ......................................................*88*
*5. Mədəndən çıxarılan qiymətli əşyanın və ya tapılan xəzinənin zəkatı*......................................................................*89*
Zəkatın götürülməsi ilə bağlı qayda..........................................89
**NƏTİCƏ** ..............................................................................91